***KƏŞİF ŞAHZADƏ***

# QURAN BİZƏ YETƏR

Müsəlmanlar arasında Qurana görə yanlış anlayışların nümunələri
və onların Qurana əsasən düzəliş yolları.

***Mərhəmətli və Rəhimli Allahın adı ilə.***
***“Odur ki, sən özünə vəhy olunan (ayələrə) sarıl! Əslində, sən düz yoldasan.”*** *əz-Zuxruf surəsi, 43-cü ayə*

***Rus dilindən tərcümə, düzəliş və əlavələr: Samir Manaflı***
***Məsləhətçi: Adil Zahid oğlu***
***Bakı 2024***

Samir Manafli

MÜƏLLİFİN ÖNSÖZÜ

Bu işdə mən müsəlmanlar arasında Qurana dair yaranmış yanlış fikirlərə izahlar gətirdim və həmçinin onlara yalnız Quranın köməyi ilə aydınlıq gətirdim. Bu yanlış fikirlərə səbəb olan odur ki, bu əsrin müsəlmanları özlərinə Allah tərəfindən yüklənmiş vəzifələrdən - Allahın Kitabını intellektual olaraq təhlil etməkdən imtina etmişlər. Onun əvəzinə onlar doğulduqları və ya mənsub olduqları təriqətin, camaatın təlimatlarına kor-koranə tabe olmağa başlamışlar və öz təriqətlərinin, camaatlarının "alim"lərinin sözlərini və hökmünü ilahi həqiqət kimi qəbul etmişlər. Onlar, əldə etdikləri məlumatları yoxlamırlar və sorğulamırlar ki, bizə miras qalan və ya böyüklərindən öyrənilən din anlayışı Allahın Kitabına uyğun gəlirmi? Böyük əksəriyyətin qəbul etdiyi və müəyyən mənafeylər tərəfindən himayə olunan bu yanlış düşüncələr, Qurani təlimatla verilən dinamik həyatı passivliyə çevirmiş, hətta müsəlmanların toplam şəklini və həyat tərzini dəyişdirmişdir. Bu gün müsəlman dünyasında hakim olan passiv və statik islam, Quranda verilən Dinamik İslamdan tamamilə fərqlidir.
Bir Allahın varlığına iman, bir çox ilahlara imanla əvəz olunmuşdur. Allahın insan üzərindəki hakimiyyəti anlayışı, insanların digər insanlar üzərindəki hakimiyyəti anlayışı ilə əvəz olunmuşdur. Nəticədə, Ümmətin mərkəzləşdirilməsi itirilmiş və müsəlman dünyası sayısız sekt və cərəyanlara bölünmüşdür. Bir Allahın əmrlərinə tabe olmaq əvəzinə, müsəlmanlar bu gün uydurma xəyallara, bu xəyalları dəstəkləyən (müqəddəs) xidmətçilərə və müxtəlif siyasi- iqtisadi istismarçılara tabe olurlar. Allahın Elçisinin missiyası, insanlığı ağır yük və zəncirlərdən (7:157) azad etməkdən ibarət idi və o bu missiyanı tamamilə yerinə yetirdi. Allahın Kitabında verilən bəşəriyyət üçün ilahi prinsip və dəyərlərin həyatın bütün sahələrində üstünlüyünü təmin etdi. Lakin İslamın düşmənləri yalan konsepsiyalar və doktrinalar hazırladılar və onları müsəlmanların ağıllarına yerləşdirməyi bacardılar, bu da Elçinin gətirdiyi din qaydalarının tamamilə pozulmasına və onun yerinə süni dinin yaranmasına səbəb oldu.
Bu yanlış düşüncələr, əsasən İslamın düşmənləri tərəfindən "İslam adına" yerləşdirilmişdir və bu gün müsəlmanlar bəla və bədbəxtliklərin ağırlığı altında inləyir və o zəncirlərlə bağlanmışdır ki, bir zaman Elçi (onun üzərinə salam olsun) gəlib onları azad etmişdi. Quranda verilən birliklə mərkəzləşdirilmiş həyat qaydası əvəzinə, inanc və həyat tərzinin minlərlə müxtəlif variantı var, onlar müsəlman ümmətini etnik olaraq kiçik ərazi hissələrinə bölüb, onları xarici güclərin qorxusu və asılılığı içərisində qoyub. Müsəlmanlar bu asılılıqdan çıxmağa çalışırlar, amma Qurana əsasən yol göstərici işıq olmadan onlar bunu heç vaxt əldə edə bilməzlər.
Dünyada sülhün zəmanətləri olmağa çağırılan, inkişaf və rifahın, elmin və texniki tərəqqinin daşıyıcısı olmağa çağırılan insanlar, bu gün alçaldılmış və köməksiz vəziyyətdədirlər. Cari bədbəxt vəziyyətdən xilas olmağın yeganə ümidi, sabit və birləşmiş bir Ümmət olaraq Allahın Kitabı ətrafında birləşməkdədir. Bu məqsəd, bütün İslam məsələlərində ən yüksək və mübahisəsiz hakimiyyətin Allahın Kitabına məxsus olduğuna, Qurana əsasən tam, dəyişməz və bu gün mövcud olan yeganə Allahın mesajı olduğuna inam olmadan əldə edilə bilməz. Müsəlman dünyası Quranın bütün sahələrdə kifayət olduğunu və onun təlimatının başa düşdüyü gün, İslam Ümmətinin Dirilişinin başlanğıcı olacaq.

Bu iş, deyilənlərin başa düşülməsi üçün bir addımdır.

Kaşif Əhməd Şahzada
Karaçi, iyul 1998

**YANLIŞ DÜŞÜNCƏ № 1**

Peyğəmbərin ﷺ dediyi hər şey Vəhydir. ən-Nəcm surəsi 3 cü ayədə deyilir ki, (O, öz istəyi ilə danışmır.) yəni o, öz arzusuna görə deyil, yalnız ona göndərilən Vəhyə görə danışır. Beləliklə, Peyğəmbər ﷺ həyatı boyunca dediyi hər söz, Allahın Dinində bir mənbədir.

**İZAH.**

Quranda Peyğəmbərin ﷺ adi insan sözü ilə ona göndərilən Vəhy arasında fərq qoyulur. Qurana görə, Elçiyə ﷺ yalnız Quran vəhy olunmuşdur və o həyatı boyunca dediyi hər şey vəhy deyil. Aşağıda Qurandan sübutlar gətirilir.

Quranda *ət-Tovbə surəsi 43 cü ay ədə* Peyğəmbərə ﷺ Münafıqlər haqqında xəbərdarlıq edilir ki, onlar Allah yolunda can və mal ilə cihad etmək istəmirlər:

***"Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmamış, yalançıları isə tanımamış nə üçün onlara (cihaddan yayınmağa) izn verdin?"***

Əgər Peyğəmbərin ﷺ dediyi hər şey Allahdan olan Vəhydirsə, yuxarıda qeyd olunan Münafıqlərə cihaddan qalmaq icazəsi Qurani vəhyə zidd olmazdı. Bu isə Elçinin dediyi hər şeyin Allahdan olan Vəhy olduğu iddiasını çürüdür. Onun insan sözü ilahi vəhydən ayrılır.

Quranda *əl-Əraf surəsi, 203-cü ayədə* Peyğəmbərə ﷺ vəhy gəlmədiyi zaman kafirlərin etirazı gətirilir: ***"Sən onlara ayə gətirmədiyin zaman: "Nə olardı ki, onu da (özündən) uyduraydın?"– deyərlər. "De: "Mən yalnız Rəbbimdən mənə vəhy olunanlara tabe oluram. Bunlar Rəbbinizdən gələn aşkar dəlillər, iman gətirən bir camaat üçün doğru yolu göstərən rəhbər və mərhəmətdir"***

Əgər Peyğəmbərin ﷺ dediyi hər şey Allahdan olan Vəhydirsə, kafirlərin ayədəki etirazı mənasız olardı, çünki Yanlış Düşüncə №1-ə görə, Elçinin ﷺ dediyi hər şey artıq Allahdan olan Vəhy olmalıdır. Ayədə isə Allah deyir ki, vəhy yalnız Qurani Ayələrdir, yoxsa Peyğəmbər ﷺ adi həyatda insan kimi dediyi hər şey deyil.

*ət-Təhrim surəsi, 1-ci ayədə* deyilir ki, Peyğəmbər ﷺ özünə Allahın icazə verdiyi bir şeyi qadağan etmişdir: ***"Ey Nəbi! Zövcələrini razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən? Allah Bağışlayandır, Rəhmlidir."*** Bu ayə də Peyğəmbərin ﷺ dediyi hər şeyin, yəni bütün fəallıqlarının vəhy olmadığını, lakin o öz təşəbbüsü ilə də hərəkət etdiyini təsdiqləyir, əks halda Allahdan xəbərdarlıq gəlməzdi. Bu ayədən aydın olur ki, Peyğəmbər də ﷺ müstəqil qərarlar qəbul edirdi və Peyğəmbərin bütün qərarları və fəallıqları Allahın vəhyi deyildi.

*əl-Bəqərə surəsi, 23-cü ayədə* Quranın Peyğəmbərə nazil olmasından şübhəyə düşənlərə ona bənzər bir surə yaratmaq çağırışı edilir: ***"Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə və doğru deyirsinizsə, onda ona bənzər bir surə gətirin və Allahdan savayı (bütün) şahidlərinizi (köməyə) çağırın! "***

Məlumdur ki, **SURƏLƏRDƏN** ibarət olan yalnız Qurandır, amma Quranı əskik görən məzhəbçi təriqətlərin Allahın vəhyi adlandırdığı hədislərin toplamlarında bir dənə belə olsun surə yoxdur.

*əl-Maidə surəsi, 101-ci ayədə* möminlərə qarışıqlığa gətirəcək şeylər haqqında sual verməmələrini, onlar haqqında Quran nazil olarkən sual verdikləri halda onlara açıqlanacağını deyilir***: "Ey iman gətirənlər! Sizə agah olunca xoşunuza gəlməyəcək şeylər barəsində soruşmayın. Əgər Quran nazil edildiyi zaman onlar haqqında soruşsanız, sizə aydın olar. Allah bunları (indiyə qədər verdiyiniz bu cür sualları) əfv etdi. Allah Bağışlayandır, Rəhmlidir."***
Beləliklə, əgər Peyğəmbərin ﷺ üçün dedikləri Allahın vəhyi olsaydı, ondan sonra möminlərə sual verilən şeylərdə məhdudiyyət qoyulmazdı.
Bu da Peyğəmbərin ﷺ dediklərinin bütünü ilahi vəhy olmadığını, yalnız onun adi insan sözü olduğunu təsdiqləyir, əks halda möminlər Quranda sərt şəkildə məhdudlaşdırılmazdılar.
Quranda *ət-Tovbə surəsi, 64-cü ayədə* Allah münafıqlərdən xəbər verir ki, onlar açığa çıxarılmaqdan qorxurlar: ***"Münafiqlər, özlərinin qəlbində olanı xəbər verən bir surənin (möminlərə) nazil olmasından çəkinirlər. "De: "Siz istehza edin! Şübhəsiz ki, Allah çəkindiyiniz şeyi üzə çıxaracaqdır*** "
Beləliklə, münafıqlər hər gün Peyğəmbərin adi sözünü, Qurani vəhydən fərqli olaraq eşidirlər, amma o sözlərdən qorxmurlar, onlar yalnız Qurani surələrlə açığa çıxarılmaqdan qorxurlar. Həmçinin, möminlər haqqında deyilir ki, onlar Qurani vəhyi əldə etməyə can atırlar: ***"Möminlər: "Kaş (cihada dair) bir surə nazil olaydı!"- deyirlər. Hökmü bəlli bir surə nazil olub orada döyüş yada salınan kimi qəlbində xəstəlik olanların sənə ölüm ayağında bayılan kimsənin baxışı ilə baxdıqlarını görərsən. …"*** (*Muhəmməd surəsi, 20-ci ayə*)
Beləliklə, əgər Peyğəmbərin dediklərinin bütünü ilahi vəhy olsaydı, onda onların - bu "hadisi-vəhy"lərinin - möminlər üçün kifayət etməməsi mümkün olardımı? Möminlərin Qurani surəyə meyl etməsi Allahın vəhyi olduğunu göstərmirmi? Çağırışın yalnız Quranda olan surələr ilə məhdudlaşdırılması da onu göstərir ki, Qurandan başqa heç bir vəhy yoxdur, əks halda bu da çağırışa daxil olardı. Yuxarıda verilən sübutlardan aydın olur ki, yalnız Quran Allahdan vəhy olaraq nazil olunub.
*ən-Nəcm surəsi, 3-cü ayə* ilə bağlı isə, burada Peyğəmbər ﷺ öz arzusuna görə deyil, ona vəhy olunan şeyə görə danışdığı deyilir, bu da yalnız Qurana aid olan sözdür, yoxsa gündəlik həyatda Peyğəmbərin danışdığı sözlərə deyil, çünki yuxarıda verilən ayələr bunu sübut edir.
Quran Allahdan Peyğəmbərə ﷺ vəhy olunan yeganə şeydir.
*ən-Nəcm surəsi 1,2,3,4 cü ayələrdə* Allah təalə belə buyurur:
***"And olsun batmaqda olan ulduza!"***
***"Sizin yoldaşınız nə (haqdan) azmış, nə də (yoldan) çıxmışdır."***
***"O, öz istəyi ilə danışmır."***
***"Bu, ona təlqin edilən bir vəhydir."***

Bu ayədə “Peyğəmbərin sözü” “Bu, ona təlqin edilən bir vəhy” kimi müəyyənləşdirilir.
İndi sual yaranır: “Bu, ona təlqin edilən bir vəhy" nədir?
Bu, Peyğəmbərin hər gün söylədiyi şeyləri də əhatə edirmi?
Quranın yuxarıda qeyd olunan sübutları əksini və Peyğəmbərə yalnız Quranın vəhy olunduğunu göstərir.
Bəs bu vəhy nəyə aiddir? Allah bu sualı *əş-Şura surəsinin 7ci ayəsində* açıqlayır:
***“Beləliklə, Biz sənə ərəbcə Quran vəhy etdik ki, şəhərlər anası (Məkkə) (əhlini) və onun ətrafındakıları xəbərdar edəsən və barəsində heç bir şübhə doğurmayan məhşər gününü yadlarına salasan. (İnsanların) bir qismi Cənnətdə, digər qismi isə Odda olacaqdır.”***
Allah Vəhyin tərifini, “ərəb dilində Qur’an” kimi verir, buna ***“Biz sənə ərəb dilində Qur’an vəhy etdik”*** sözləri işarə edir.
Peyğəmbər ﷺ özü də ona vəhy olunan Vəhyin nədən ibarət olduğuna
*əl-Ənam surəsi, 19-cu ayədə* şahidlik edir:
***“...Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim...”***
Yəni, Quranın öz ayələrindən olan şahidlik, Allahın Peyğəmbərinə nə vəhy etdiyini aydın şəkildə bilməyimizə imkan verir. Yuxarıda qeyd olunan ayələrdən aydın görünür ki, Peyğəmbərin ﷺ insan sözü ilahi vəhydən ayrılır və yalnız Quran Allah tərəfindən ona vəhy olunan ilahi Sözdür.

**YANLIŞ DÜŞÜNCƏ № 2**

Quran Allaha və Peyğəmbə itaəti əmr edir. Allaha itaət Qurana itaət etmək, Peyğəmbərə itaət isə onun hədislərinə olan itaət deməkdir.

**İZAH**.

Quran yalnız "***Rəsula itaət edin***" deyil, həmçinin Rəsula bütün qərarlarda İlahi Risalətə əsaslanmağını əmr edir və Rəsula ﷺ itaət etmək, Allahın Rəsuluna verdiyi Təlimata itaət etmək deməkdir.

***PEYĞƏMBƏR ALLAHDAN HANSI TƏLİMATI ALIB?***

Quran *əl-Maidə surəsi, 67-ci ayədə* Rəsula ﷺ ona verilən İlahi Risaləti tamamilə çatdırmağını əmr edir, əks halda elçilik missiyasını yerinə yetirilməyəcəyini bildirir: ***" Ey Rəsul! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər (belə) etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz.."***

Yuxarıdakı ayədə Peyğəmbərə ﷺ Allahın nazil etdiyi şeyi ***("ma unzila ilaika min Rabbika"***) çatdırması əmr olunur. Beləliklə, Peyğəmbərə ﷺ nə nazil olunub?

***"...Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik."*** *(ən-Nəhl surəsi, 89-cu ayə)*

Beləliklə, hər şeyin izahını ehtiva edən, Rəhbərlik olan Allahın Kitabı, Peyğəmbərə nazil olunandır.

*ən-Nisa surəsi, 105-ci ayədə* İlahi təlimat belə təriflənir:

***"Allahın sənə göstərdiyi şəkildə insanlar arasında hökm verəsən deyə Kitabı sənə haqq olaraq nazil etdik. Ona görə də xainlərin müdafiəçisi olma!".***

Və yenə də, bu Allahın Kitabıdır ki, Peyğəmbərə İlahi Kitab kimi verilir və məhz onunla Peyğəmbər insanlar arasında hökm edəcəkdir: ***"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın (sənə) nazil etdiyi (Kitabla) hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma..."*** *(əl-Maidə surəsi, 48-ci ayə*).

Bu ayə Peyğəmbərə yalnız Allahın Kitabının nazil olunduğunu bir daha təsdiq edir və onun yalnız Allahın Kitabına görə hökm verməsini və ondan uzaqlaşmamasını əmr edir. Yuxarıda qeyd olunanlar, eləcə də Quranın bir çox ayələri Peyğəmbərə İlahi təlimat kimi yalnız Quranın nazil olunduğunu sübut edir.

**PEYĞƏMBƏR İNSANLAR ARASINDA HANSI TƏLİMATLA HÖKM EDƏRDİ?**

Allah Quranda *Qaf surəsi, 45-ci ayədə* belə buyurur:

***"Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver!"***.

Beləliklə, Allah Peyğəmbərə ﷺ yalnız Quranala insanlara nəsihət etməsini əmr edir və Peyğəmbər özü də onun missiyasının "Yalnız Qurana görə nəsihət etmək" olduğunu təsdiq edir:

***"..Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim..."*** (*əl-Ənam surəsi, 19-cu ayə*).

***"Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur (Muhəmməd) və açıq-aydın bir Kitab gəldi.", "Allah, Onun rizasını arayan şəxsləri (bu Kitabla) əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir."*** (*əl-Maidə surəsi, 15-16 cı ayələr*).

Bu ayələrə görə, Peyğəmbər ﷺ Kitab əhlinə yalnız Allahın Kitabını çatdırır.

Növbəti ayə Peyğəmbərə ﷺ yalnız İlahi rəhbərliyi insanlara çatdırmasını yenidən xatırladır: Peyğəmbər Quranı oxumalıdır ki, istəyənlər Rəhbərliyi qəbul edə bilsinlər və yenə də, Peyğəmbərin ﷺ vəzifəsinin yalnız Quranı çatdırmaq olduğu vurğulanır:

***"Quranı sənə nazil edib vacib buyuran (Allah) qayıdacağın yerə səni mütləq qaytaracaqdır..."***. (*əl-Qasas surəsi, 85-ci ayə*).

Bu ayədə Quranın Peyğəmbər ﷺ üçün vacib sayıldığı bildirilir. Həmçinin, bu ayələrdən çıxan nəticə odur ki, Peyğəmbər ﷺ Qurandan uzaqlaşa bilməz və bütün qərarlarını Allahın Kitabına əsasən verməlidir, bunu *əl-Maidə surəsi, 48-ci ayədə* gördük.

Peyğəmbər ﷺ öz fikrini və ya düşündüyünü çatdırmır, yalnız İlahi Risaləti, yəni Quranı çatdırır. İtaət və tabeçilik yalnız Allahın qanunları çərçivəsində ola bilər və insanlar Peyğəmbərin şəxsi fikrinə və ya düşündüyünə deyil, yalnız Quranda olan Allahın qanunlarına itaət edirlər.

**YALNIZ ALLAHIN QANUNLARINA TABEÇİLİK**

***"...Hökm yalnız Allahındır..."*** (*Yusuf surəsi, 40-cı ayə*).

***"O, Öz hökmünə heç kəsi şərik etməz!"*** (*əl-Kəhf surəsi, 26-cı ayə*)

***"O, Öz hökmünə heç kəsi şərik etməz!"*** frazası tamamilə aydın şəkildə göstərir ki, hökm etmək - yalnız Allaha aiddir. Hətta Allahın Peyğəmbərinin də Allahın hökmünü öz şəxsi fikrinə və ya arzusuna tabe etməyə haqqı yoxdur; itaət yalnız Allahın qanunlarına ola bilər: ***"Heç kimə yaraşmaz ki, Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!"– desin. Əksinə, (o deyər): "Öyrətdiyiniz Kitabın və (ondan) öyrəndiyiniz şeyin sayəsində din xadimləri olun!"*** (*Ali İmran surəsi, 79-cu ayə*).

Ayədə görürük ki, Allahın Risalətinin alıcısı olan Peyğəmbər ﷺ belə, öz fikir və ya arzusuna kimisə tabe etməyə haqqı yoxdur, yalnız Allahın qanunlarına tabe olmağa çağırır, Allahın Kitabını oxuyur və başqalarına öyrədir.

Allahın hakimiyyəti bütün Kainatda təbiət qanunları şəklində mövcuddur, lakin insan işlərində bu hakimiyyət, Allahın Kitablarında yer alan təlimatlar vasitəsilə qurulur. Məhəmməd Peyğəmbər də ﷺ təsdiqləməlidir ki, insanların həyatında Allahın Kitabında

verilmiş əmrlər və qanunlar tətbiq edilməlidir:
***“(De:) “Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?”*** (*əl-Ənam surəsi, 114-cü ayə*).

***PEYĞƏMBƏR YALNIZ ALLAHIN QANUNLARINI ÇATDIRIR VƏ İNSANLAR YALNIZ BU QANUNLARA İTAƏT ETMƏLİDİR***

Yuxarıdakı *əl-Ənam surəsi, 114-cü ayəsində* aydın şəkildə deyilir ki, Peyğəmbər ﷺ özü də Allahın Kitabındakı qanunlara əsasən hərəkət etməlidir və bu da onu göstərir ki, Peyğəmbərə itaət etmək, Allaha və Allahın Kitabındakı Qanunlara itaət etmək deməkdir. Növbəti ayələr də Peyğəmbərə itaət etməyin, onun çatdırdığı Risalətə itaət etmək demək olduğunu təsdiq edir:
***“Allaha itaət edin, (Onun) Elçisinə itaət edin və (asi olmaqdan) çəkinin! Əgər üz çevirsəniz, bilin ki, Elçimizin öhdəsinə düşən ancaq açıq-aydın təbliğ etməkdir.”*** *(əl-Maidə surəsi, 92-ci ayə).*
***“Allah, yaratdıqları şeylərdən sizin üçün kölgələr əmələ gətirdi, dağlarda sizin üçün mağaralar saldı, sizi istidən qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək zirehli geyimlər düzəltdi. Beləcə, (Allah) Öz nemətini sizə tamamlayır ki, bəlkə müsəlman olasınız.”, “Əgər üz çevirsələr, (bil ki,) sənin vəzifən ancaq aşkar təbliğat aparmaqdır.”*** *(ən-Nəhl surəsi, 81-82-ci ayələr).*
***“Əgər (onu )yalançı hesab etsəniz, (bilin)(ki,) sizdən əvvəlki xalqlar da öz (peyğəmbərlərini) yalançı saymışdılar. Peyğəmbərin vəzifəsi isə sadəcə olaraq (dini) anlaşıqlı tərzdə təbliğ etməkdir.”*** *(əl-Ənkəbut surəsi, 18-ci ayə).*
***“Allaha və Onun Elçisinə itaət edin! Əgər üz çevirsəniz, (bilin ki,) Elçimizin öhdəsinə düşən yalnız açıq bir təbliğdir.”*** *(əl-Təğabun surəsi, 12-ci ayə)*
***“De: “Allaha və Rəsuluna itaət edin”. Əgər üz çevirsəniz, (bilin ki,) o ancaq özünə həvalə edilənə cavabdehdir, siz də ancaq özünüzə həvalə edilənə cavabdehsiniz. Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə ancaq açıq-aşkar təbliğat aparmaqdır”***
*(ən-Nur surəsi, 54-cü ayə)*
Yuxarıdakı ayələr *“Allaha və Onun Peyğəmbərinə itaət etməyin”* nə demək olduğuna aydın şəkildə tərif verir. Ayələrdə keçən ***“… və Peyğəmbərə isə yalnız açıq şəkildə risaləti çatdırmaq düşür”*** frazası aydın şəkildə göstərir ki, Peyğəmbər insanları yalnız Allahın Kitabındakı Qanunlara itaət etməyə çağırır.

Bu da onu göstərir ki, Allah və Peyğəmbər ayrı-ayrı, paralel təlimatlar vermirlər, yalnız bir İlahi Qanun verirlər.

Allah Öz Qanunlarını Risalətdə izah edir, onları Öz Peyğəmbərinə bildirir, Peyğəmbər isə onları insanlara çatdırır və insanlar da onlara itaət etməlidirlər.

***İTAƏT YALNIZ PEYĞƏMBƏRİN ALDIĞI VƏ ÇATDIRDIĞI RİSALƏTƏ AİDDİR. QURANDAN BAŞQA HEÇ BİR KİTAB ŞƏRİƏTDƏ RƏHBƏRLİK KİMİ QƏBUL EDİLMƏMƏLİDİR***

*əl-Əraf surəsi, 2-ci və 3-cü ayələrdə* deyilir ki, möminlər yalnız Allahın Kitabına itaət etməli və ondan başqa heç bir mənbəyə itaət etməməlidirlər:
***"(Bu,) (insanları) qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın." , "Rəbbinizdən sizə nazil edilənə tabe olun. Onu qoyub başqa dostlara uymayın. Siz necə də az öyüd-nəsihət dinləyirsiniz."*** Yalnız ***"Rəbbinizdən sizə nazil edilənə tabe olun"*** və ***"Onu qoyub başqa dostlara uymayın"*** frazaları, itaəti yalnız Allahın nazil etdiyinə məhdudlaşdırmaq lazım olduğunu izah edir. Quran Peyğəmbərə xatırladır ki, Allah ona Qurandan başqa heç bir kitab verməyib ki, insanlar onu öyrənsinlər və ona tabe olsunlar:
***"Hərçənd ki, Biz onlara oxuyub öyrənmələri üçün bir kitab verməmişdik və səndən əvvəl də onlara bir xəbərdarlıq edən göndərməmişdik."*** (Səba surəsi, 44-cü ayə). Bütün zamanların və xalqların müşrikləri bu Quran ayələrinə etiraz ediblər və edəcəklər, amma Allah deyir ki, O, Kitabından başqa heç bir kitab verməyib ki, onu öyrənsinlər və ona tabe olsunlar.
Allah yenidən soruşur:
***"Biz heç müsəlmanları günahkarlara tay tutarıqmı?" ,***
***"Sizə nə olub, necə hökm verirsiniz?",***
***"Yoxsa sizin elə bir kitabınız vardır ki, ondan oxuyursunuz?" ,***
***"(Ya da) onda bəyəndiyiniz hər bir şeyin sizin olacağı (yazılmışdır)?"***
*( əl-Qələm surəsi, 35-36-37-38 c i a yələr).*
Allahın yuxarıdakı ayələrdəki **"Yoxsa sizin elə bir kitabınız vardır ki, ondan oxuyursunuz?"** sualı göstərir ki, insanların Allahın Kitabından başqa heç bir Kitabı olmamalıdır.
Növbəti ayədə, Allah deyir ki, O, Qurandan başqa heç bir Kitab verməyib:
***"...Yaxud onlara bir kitab vermişik, onlar da ondakı dəlilə istinad edirlər? Xeyr! Zalımlar bir-birinə ancaq yalan vəd verirlər."*** *(Fatir surəsi, 40-cı ayə).*

*əz-Zuxruf surəsi, 21-ci ayədə* kafirlər haqqında deyilir:
***"Bəlkə onlara bundan əvvəl kitab vermişik və onlar da ona istinad edirlər?"***
*əl-Haqqə surəsində* Peyğəmbərin ﷺ yalnız verilən Vəhyi söyləyə biləcəyi ayələrdən sonra deyilir ki, əgər o, (Peyğəmbər) özündən bir şeylər uydurub Allahın adına əlavə etsə, sərt cəzalandırılacaq:
**"Əgər (Muhəmməd) bəzi sözləri özündən uydurub Bizə aid etsəydi," ,**
**"Biz onu sağ əlindən yaxalayar," ,**
**"sonra da şah damarını kəsərdik." ,**
**"İçərinizdən heç kəs buna mane ola bilməzdi."** *(44-45-46-47)*

*əs-Saffat surəsində* Allah kafirlərə meydan oxuyur ki, onlar öz Kitablarını

gətirsinlər və beləliklə göstərir ki, bütün insanlar tərəfindən uydurulan kitablar və təlimatlar səhvlər və çatışmazlıqlarla doludur:
***“Sizə nə olub, bu necə mühakimədir yürüdürsünüz?” ,***
***“Məgər düşünüb ibrət almayacaqsınız?” ,***
***“Yoxsa sizin aydın bir dəliliniz vardır?” ,***
***“Əgər doğru deyirsinizsə, kitabınızı gətirin!”*** *(əs-Saffat surəsi 154-155-156-157).*
Peyğəmbər ﷺ Allahın Kitabını, Allahın Qanunlarını təsdiq edir və həmçinin Musaya verilən Vəhyi də təsdiq edir ki, o da Quranla eyni Risaləti ehtiva edir: ***“(Allah) Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: “Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!” Sənin dəvət etdiyin (tövhid) müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və (Ona) üz tutanı Özünə tərəf yönəldər.”*** *(əş-Şura surəsi, 13-cü ayə)*
***“De: “Əgər doğru deyirsinizsə, Allah tərəfindən elə bir Kitab gətirin ki, bu ikisindən daha doğru yol göstərən bir rəhbər olsun və mən də ona tabe olum!””*** *(əl-Qasas surəsi, 49-cu ayə).*
Bu ayə göstərir ki, Qurandan başqa heç bir Kitab yoxdur (o da Musanın Risalətini ehtiva edir) ki, bizi İlahi rəhbərliyə çatdırsın. Allah bildirir ki, O, Kitabını nazil etməyin məqsədi bizim Öz qanunlarına tabe olmağımız və Öz Dinimizi təmiz saxlayıb heç bir yeniliklər gətirməməyimizdir. Bu Kitab həqiqəti və yalanı aydın şəkildə ayırır, amma insanlar hələ də Qurana tabe olmur və insanlar tərəfindən uydurulan dinə xidmət edirlər:
***“Bu Kitab Qüdrətli və Müdrik Allahdan nazil edilmişdir.” ,***
***“Biz Kitabı sənə bir həqiqət kimi nazil etmişik. Sən də, dinin yalnız Allaha məxsus olduğuna (iman gətirərək), Ona ibadət et!” ,***
***“Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: “Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik”– (deyirlər.) Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.”*** *(əz-Zumər surəsi, 1 ,2 ,3 cü ayələr).*
***“Allaha və Onun Rəsuluna itaət etmək”*** iki ayrı itaət deyil. Bir çoxları səhv şəkildə düşünürlər ki, ***“Allaha itaət etmək, Qurana itaət etmək, Rəsula itaət etmək isə hədislərə itaət etmək deməkdir”. “Allah və Onun Rəsulu”*** termini bir Qanun və İtaət mənbəyi təmsil edir. Peyğəmbər Allahdan başqa heç bir şey elan etməyib, Allahın bir elanı, Peyğəmbərin başqa bir elanı demək deyil. Allah Özü bu qərarı qəbul edib və Peyğəmbər vasitəsilə insanlara elan edib.
*ət-Tövbə surəsi 3-cü ayədə* Allah Öz Rəsulu vasitəsilə möminlərlə müqavilə bağlayan “Müşriklər” haqqında bildirir:

***"(Bu, )Allah və Onun Elçisi tərəfindən ən böyük həcc günü insanlara Allahın və Onun Elçisinin müşriklərdən uzaq olmasını (elan edəcək) bir bildirişdir. Əgər tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Yox əgər üz döndərsəniz, bilin ki, siz, Allahdan yaxa qurtara bilməyəcəksiniz. Kafirləri üzücü bir əzabla müjdələ."***

Bu ayədə, uzaqlaşma elanı Rəsul tərəfindən edilib və "Allah və Onun Rəsulu" kimi səsləndirilib. Bu, Allah və Onun Rəsulunun iki ayrı qanun və dini fərman verən mənbə olmadığını təsdiq edir. Allah bütün İlahi qanunların yeganə mənbəyidir.

O, bu qanunları hər kəsə ayrı-ayrı verməyib, insanlar arasından birini seçib və ona Elçi deyib. O, Öz qanunlarını və fərmanlarını Öz seçdiyi Peyğəmbərə açıqlayır.

Allahdan Vəhy yolu ilə Qanunları alıb və onları insanlara çatdıranlara ***"Nəbi"*** və ***"Rəsul"*** deyilir.

***"Nəbi" -"İlahi Risalət alan", "Rəsul" isə "Risaləti insanlara çatdıran"dır.***

Peyğəmbər yalnız Vəhy yolu ilə aldığı Qanunları insanlara çatdırmaqla bərabər, özü də onlara itaət edir. Bu Qanunlar və Fərmanlar, Allahın Kitabında olanlardır, Peyğəmbərə Vəhy yolu ilə verilənlərdir və Peyğəmbər onları insanlara çatdırır və onlara itaət etməyə çağırır. Buna görə də, Quran ayələri, İlahi vəhy – Rəsulun ağzından söylədiyi sözlər adlanır: ***"Bu, şərəfli elçinin sözüdür"*** *(əl-Haqqə surəsi, 40-cı ayə)*.

Buna görə, Rəsula itaət edən, Rəsulun təbliğ etdiyinə, yəni Allahdan olan Risalətə itaət edəndir. Peyğəmbərə itaət edən insanlar, Allahın ona nazil etdiyi şeyə, yəni Qurana itaət edirlər və Peyğəmbərin verdiyi fərmanlara itaət edərək, Allahın fərmanlarına itaət edirlər.

Çünki Allah Öz təlimatını Öz Peyğəmbərinə verib. Quran buna görə də bizə deyir: ***"Kim Rəsula itaət edərsə, Allaha itaət etmiş olar, kim üz çevirərsə, (bil ki,) Biz səni onlara gözətçi göndərməmişik."*** *(ən-Nisa surəsi, 80-ci ayə)*

Yuxarıdakı Quran ayələri bizə göstərdi ki, Peyğəmbərə itaət etmək, onun şəxsi əmrlərinə, fikirlərinə və ya arzularına itaət etmək deyil, Vəhy yolu ilə verilən İlahi qanunlara, yəni Qurana itaət etməkdir. Həmçinin göstərdi ki, Allah və Onun Peyğəmbəri iki ayrı mənbə deyil, bir yeganə İlahi Qanun mənbəyidir.

**YANLIŞ DÜŞÜNCƏ № 3**

Peyğəmbərin vəzifəsi Quran Risalətini ünvanına çatdırmaqla bitmir, həmçinin onu izah etmək və şərh etmək də daxildir. Quranın bir çox ayələrində deyilir ki, o, insanlara Kitabı öyrədir. Peyğəmbərin öyrətdiyi şey, bu gün hədis toplamlarında mövcuddur. Yəni, Quran – nəzəriyyə, hədis toplamları isə onun praktiki tətbiqidir.

**İZAH.**

Peyğəmbərin vəzifələrinin yalnız insanlara Allahın Kitabını oxumaqla bitmədiyi, Kitabda da deyilir:

***"Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları (günahlardan) təmizləsin!..."*** *(əl-Bəqərə surəsi, 129-cu ayə),*

amma problem odur ki, Peyğəmbərə mənsub edilən və müxtəlif məzhəblər tərəfindən dəstəklənən hədislər, Quran ayələrini izah edə bilmirlər. Bu hədislərdə olanlar, paradoksal mesajların cəmi, yalnız müəyyən ayələrlə məhdudlaşmışdır. Heç bir hədis toplamı, Allahın Peyğəmbərinə mənsub edilə biləcək, Quranın ilk surəsindən son surəsinə qədər bütün ayələrin şərhini və izahını ehtiva etmir. Bu halda sual yaranır: Peyğəmbər Quranı öz çağdaşlarında necə izah edirdi? Və bu izahları bu gün harada tapa bilərik? Quran bu əhəmiyyətli suala cavab verir: Allahın Kitabı heç bir insan təfsirinə və ya şərhinə ehtiyac duymur və asılı deyil, Quranın təfsiri özü Qurandadır. Quran, adi kitablar kimi deyil, bir mövzunu bir yerdə təhlil edən, mövzuları toplayıb bölümlərə ayıran kitab deyil. Quranın mövzuları isə müxtəlif surələrə yayılmışdır. Məsələn, Boşanma mövzusu 2-ci surə "əl-Bəqərə", 4-cü surə "ən-Nisa", sonra 33-cü surə "əl-Əhzab" və daha sonra 65-ci surə olan "ət-Təlaq" surəsi də boşanma məsələlərinə həsr olunub. Bütün boşanma mövzusuna aid ayətləri toplayanda, Quranın boşanma haqqında nə dediyini bilərik. Və görürük ki, hər bir ayət digərini açıqlayır və izah edir. Allah Qurandakı müxtəlif mövzuları belə açıqlayır, yəni müxtəlif surələrdə müxtəlif aspektlərdə təkrarlayır. Quranın mövzularını təkrar etmə yolu, Allahın ayətləri açıqlama metodudur:

***“Bax gör! Biz ayələri belə izah edirik ki, bəlkə başa düşsünlər.... ”*** *(əl-Ənam surəsi, 65-ci ayə).*

***“Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi.”*** *(əl-İsra surəsi, 89-cu ayə).*

Allah Qurandakı mövzuları bölüb və əgər bir məsələ bir yerde aydın deyilsə, başqa bir ayətdə Quranda Allah onu AÇIQLAYIR. Eyni şəkildə, Allahın Peyğəmbəri də Qurani Quranın özü ilə AÇIQLAYIRDI:

***“Biz ayələri beləcə izah edirik ki, onlar: “Sən dərs almısan”– desinlər və Biz də onu (Quranı) bilən adamlara açıqlayaq.”*** *(əl-Ənam surəsi, 105-ci ayə).*

Yuxarıdakılardan göründüyü kimi, Peyğəmbərin Quranı izah etməsi, Quranın mövzularını təkrar etməklə, Quranda olan mövzuları açıqlamaqdan ibarətdir. Quran ayələri belə qurulmuşdur ki, Quran Quranda özü ilə AÇIQLANIR.

Bu, *25-ci surədə* də təsdiqlənir, burada kafirlərin müəyyən etirazları qeyd edilir:

***"Kafirlər dedilər: "Nə üçün Quran ona bir dəfəlik bütöv nazil olmadı?" Biz onu sənin qəlbini möhkəmləndirmək üçün tədricən nazil etdik və onu ən gözəl şəkildə (ayəbəayə) izah etdik."***

***"Onlar sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, (ona cavab olaraq) Biz sənə haqqı və ən yaxşı yozumu verməyək."*** *( əl-Furqan surəsi, 32 - 33-cü ayə).*

Yuxarıdakı ayətlər çox vacib bir şeyi AÇIQLAYIR. Bu ayələrdən biz görürk ki, kafirlərin Quranın niyə bir dəfədə "bütöv halda nazil olunmadı" etirazına Quran cavab verir ki, o, mərhələli şəkildə AÇIQLANIR. Və bunun aşağıdakı səbəbləri var:

(1) Peyğəmbərin qəlbini möhkəmləndirmək üçün:

***"Biz onu sənin qəlbini möhkəmləndirmək üçün tədricən nazil etdik və onu ən gözəl şəkildə (ayəbəayə) izah etdik"***. Beləliklə, Peyğəmbər yalnız Quran ayələrinə sıxıntısız bağlı qalmağı öyrəndi.

(2) Kafirlərin etirazlarına Quranın Həqiqəti ilə cavab vermək və ən yaxşı izahını və şərhini Allahın Kitabından verildiyini bildirmək üçün belə deyilir:

***"Onlar sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, (ona cavab olaraq) Biz sənə haqqı və ən yaxşı yozumu verməyək"***.

Beləliklə, Allah ayətləri nazil etdi, onların təfsiri isə digər ayətlərlə edildi. Bir ayətdə bəlli olmayan şey, başqa bir ayətlə Allah tərəfindən mərhələli şəkildə AÇIQLANDI və şərh edildi. Beləliklə, Allah öz Kitabının təfsirini Quranda özü etdi və Öz Kitabını heç bir hədis və rəvayət toplumundan asılı etmədi.

Peyğəmbər də belə etdi və onu insanlara çatdırdı. Peyğəmbər heç bir başqa, ayrı təfsir kitabı vermədi, çünki Quranın təfsiri özü Qurandadır. Quranın, məlum olduğu kimi, özü ayətləri təkrarlayaraq özünü AÇIQLADIĞI halda, bizə bu ayətlər üzərində düşünmək əmr olunur, çünki Quranın mesajı yalnız onun mənasını başa düşməyə çalışanlar üçün əlçatan olacaq. Özünün başa düşmə bacarıqlarından istifadə edən və Allahın bəşəriyyətə göndərdiyi mesajın mənasını araşdırmağa başlayanlar üçün Quran ayətləri bəllidir:

***"...Artıq Biz ayələri anlayan bir qövmə izah edirik."*** *(əl-Ənam surəsi, 98-ci ayə).* ***"Biz ayələri düşünən adamlar üçün beləcə izah edirik"***

*(Yunus surəsi, 24-cü ayə).*

Bununla yanaşı, Quran Allahın Kitabı üzərində düşünməyə və onu araşdırmağa çağırır:

***"(Bu) mübarək Kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik."***

*(Sad surəsi, 29-cu ayə).*

Beləliklə, Quran üzərində düşünmək və onu araşdırmaq çağırışı bütün nəsillərə ünvanlanır ki, onlar hər biri ilahi rəhbərliyin işığı altında öz zamanlarının problemlərinə həll tapa bilsinlər. Quranın mənası ayətlərin təkrarlanması ilə açıqlanacaq, eyni şəkildə, insanların Quranı başa düşmələri üçün öz ağıllarını və intellektlərini istifadə etmələri lazımdır. Növbəti ayətlər intellektin Quranı başa düşməkdə vacibliyinə işıq salır:

***“...Bax gör! Biz ayələri belə izah edirik ki, bəlkə başa düşsünlər.”***

*(əl-Ənam surəsi, 65-ci ayə).*

***“Bax gör, Biz ayələri necə izah edirik, sonra onlar (yenə) üz çevirirlər.”***

(əl-Ənam surəsi, 46-ci ayə).

Allah özü "müfəssir"dir, yəni Quranın təfsircisidir, çünki bir ayətin təfsiri digər bir ayətlə edilir:

***“Ər-Rəhman (Mərhəmətli). O, Qurani öyrədəndir”*** *(ər-Rahmən surəsi, 1-2-ci ayə)*

Allah yalnız Quranı nazil etmək, toplamaq və qorumaq deyil, həmçinin Onun AÇIQLAYICISI olduğunu da bildirir:

***“Onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə!” ,***

***“Çünki onu cəm etmək, oxutmaq Bizə aiddir.” ,***

***“Biz onu oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə.” ,***

***“Sonra onu bəyan etmək (açıqlamaq) də Bizə aiddir!”.***

*(əl-Qiyamə surəsi, 16-17-18-19-cu ayə).*

***“Əlif. Ləm. Ra. (Bu,) Müdrik, Xəbərdar (olan Allah) tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır.”***

*(Hud surəsi, 1-ci ayə)*

Beləliklə, Allah bizə Kitabında bildirir ki, Allahın Kitabının təfsirini Allah Özü təmin edir. Bu səbəbdən mənbəyi, mənşəyi bilinməyən, insan əməyinin məhsulu olan hədis və təfsirlərin bu missiyanın əvəzolunmaz icraçıları kimi qələmə vermək böyük bir yanşılıqdır. Allahın Kitabının təfsirini Allah Özü təmin edir, çünki O, Quranın yaradıcısı və mənasını ən yaxşı biləndir.

**YANLIŞ DÜŞÜNCƏ №4**

Quranda deyilir ki, Allahın Peyğəmbərində bizim üçün gözəl bir nümunə var, buna görə də onun nümunəsini izləmək üçün ona mənsub edilən hədis və rəvayətləri oxumaq lazımdır.

**İZAH.**

Bu barədə *əl-Əhzab surəsi, 21-ci ayəsində* belə deyilir:
***"Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir."***
Peyğəmbərin nümunəsi Quranda verilir və biz həqiqətən də bu nümunəni izləməliyik. Amma Peyğəmbərin nümunəsini izləmək üçün onun haqqında yalnız Allahın Kitabından məlumat əldə etməliyik. Ayətdəki **"Usvətün Həsənə"** frazası - İzləmək üçün gözəl nümunə - deməkdir ki, biz Peyğəmbərin həyatda necə davrandığını və hansı prinsiplər əsasında hərəkət etdiyini bilirik.
Bu aspekt *Yunus surəsi, 15-ci ayəsində* verilir:
***"Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxaram"***.
Buna görə də, biz onun nümunəsini izləmək istəsək, onun kimi hərəkət etməliyik, yəni ona verilən vəhyə, yəni Qurana tabe olmalıyıq. Peyğəmbər Quran ayələrinə uyğun hərəkət etdi, buna görə də, biz onun nümunəsini izləmək istəsək, eyni şeyi etməliyik.
*əl-Mumtəhənə surəsi, 4-cü ayəsində* deyilir ki,
***"İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır..."*** . Burada sual yaranır, bizim İbrahim Peyğəmbərin (ona Allahın salamı olsun) nümunəsini ona mənsub edilən hədis və rəvayətlərdə axtarmalıyıq? Xeyr, bu belə deyil. Bu, Quranda haqqında danışılan İbrahim Peyğəmbərin (ona Allahın salamı olsun) hərəkəti, inananlar üçün bir nümunədir və biz öz hərəkətimizi bu nümunəyə əsaslandırmalıyıq.

**YANLIŞ DÜŞÜNCƏ № 5**
Peyğəmbərə mənsub edilən bir hədisdə deyilir ki, ona Quran və ona bənzər bir şey verilib. *(Abu Davud. Səhih sünən. Fəsil 6, Hədis 7)*
Və bu Qurana bənzər olan şey, ona mənsub edilən hədislərdir.

## İZAH
Allah Qurana bənzər bir şeyin olduğu fikrini Özü rədd edir:
***"De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün (bir yerə) toplaşıb, bir-birinə kömək etsələr də ona bənzərini gətirə bilməzlər."***
*(əl-İsra surəsi, 88-ci ayə).*
Kim iddia edə bilər ki, Peyğəmbərə Qurana bənzər bir şey verilib, Allah özü Qurana bənzər bir şey olmadığını dediyi halda?
*ət-Tur surəsi, 33-34 cü ayələrdə* Allah سبحانه و تعا kafirlərə meydan oxuyur: ***"Yoxsa onlar: "Bunu özündən uydurdun!"– deyirlər. Xeyr, onlar iman gətirmirlər." , "Əgər doğru söyləyirlərsə, qoy ona (Qurana) bənzər bir hədis gətirsinlər."***
Allah kafirlərə Qurana bənzər bir "Hədis" və ya söz, və ya xəbər gətirməyə çağırır, beləliklə, ***"Əgər doğru söyləyirlərsə, qoy ona (Qurana) bənzər bir hədis gətirsinlər."*** sözləri ilahi meydan oxumasıdır ki, Allahın Kitabına bənzər heç bir "Hədis" olmadığını göstərir.
*əl-Bəqərə surəsi, 23-24-cü ayələrdə* deyilir ki, heç kim heç vaxt Allahın Kitabına bənzər bir şey yarada bilməyəcək:
***"Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə və doğru deyirsinizsə, onda ona bənzər bir surə gətirin və Allahdan savayı (bütün) şahidlərinizi (köməyə) çağırın!" , "Əgər siz bunu edə bilmirsinizsə, – heç edə də bilməzsiniz – onda yanacağı insanlardan və daşlardan olan, kafirlər üçün hazırlanmış oddan çəkinin."*** Qurana bənzər bir şeyin olduğu iddiasının yanlışlığı yuxarıdakı ayətlərlə aydın şəkildə sübut edilib. Bundan başqa, Quran özünü ***"Bu, möhtərəm bir Elçinin sözüdür."*** *(əl-Haqqə surəsi, 40-cı ayə)* adlandırır və onun atributlarından biri də "Əhsən-ül-hədis"dir, yəni Ən Yaxşı Söz, və ya "Ən Yaxşı Hədis"dir.
***"Allah Sözün ən gözəlini – (ayələri) bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi. Rəbbindən qorxanların ondan dəriləri ürpəşər. Sonra isə Allahı yad etməklə dəriləri və qəlbləri yumşalır. Bu, Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldir. Allahın zəlalətə saldığı şəxsə isə yol göstərən olmaz."***
(əz-Zumər surəsi, 23-cü ayə).

Özünü ***“Ən Yaxşı Hədis”*** kimi adlandıran Quran bizə bildirir ki, o, Allahın Peyğəmbərlərinin “Hədislərini” *Ta ha surəsi, 9-cu,*
***“ Musanın əhvalatı (hədisi) sənə gəlib çatdımı?”***
*əz-Zəriyət surəsi, 24-cü,*
***“ İbrahimin möhtərəm qonaqlarının əhvalatı (hədisi) sənə gəlib çatdımı?”***
*ən-Naziat surəsi, 15-ci,*
***“ Musanın hadisəsi (hədisi) sənə yetişdimi?”***
ayələri ehtiva edir və bu, Allahın Kitabıdır, Peyğəmbərə verilən faktiki “Hədisdir”: ***“Onlar bu Kitaba (hədisə) inanmırlar deyə, arxalarınca kədərlənib özünü həlakmı edəcəksən?”*** *(əl-Kəhf surəsi, 6-cı ayə).*
Öz Kitabını “Hədis” kimi təyin edən Allah, həmçinin bizi, Öz Kitabından başqa heç bir "Hədis"i qəbul etməməyə xəbərdar edir, çünki O, "Əhsən-ül-hədis"dir, yəni ən yaxşı hədisdir. Növbəti ayətlər, Allahın Peyğəmbərinə Quran formasında verdiyi "Hədis"in özünə yetərli olduğunu deyir:
***“Onlar bu (Qurandan) sonra hansı hədisə inanacaqlar?”***
*(əl-Mursəlat s urəsi, 50-ci ayə)*
***“Məgər onlar göylərin və yerin səltənətinə, Allahın yaratdığı hər şeyə, əcəllərinin yaxınlaşa biləcəyinə diqqət yetirmirlərmi? Bundan sonra hansı hədisə inanacaqlar?”*** *(əl-Əraf surəsi, 185-ci ayə)*
***“Özündən başqa ilah olmayan Allah, (baş verəcəyinə) şübhə edilməyən Qiyamət günü sizi mütləq (bir yerə) toplayacaqdır. (Verdiyi) xəbərdə Allahdan daha doğru hədis söyləyən kim ola bilər?”*** *(ən-Nisa surəsi, 87-ci ayə)*
Allah bizi, Öz Kitabından başqa heç bir "Hədis"i qəbul etməməyə xəbərdar edir, çünki O, "Əhsən-ül-hədis"dir, yəni ən yaxşı hədisdir
***“Bu Hədisi (sözü) yalan sayanları Mənim öhdəmə burax. Biz onları (tovlayıb) bilmədikləri bir yöndən tədricən (əzaba) sürükləyirik.”***
*(əl-Qələm surəsi, 44-cü ayə).*
***“Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulmuş bir hədis deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.”*** *(Yusuf surəsi, 111-ci ayə).*
Yuxarıdakı ayətdə deyilir ki, Quran “uydurulmuş bir “Hədis” deyil, beləliklə, insanlar tərəfindən uydurulacaq "Uydurulmuş Hədislər"in mövcudluğunu təsdiqləyir və bu iftiralar Allahın Peyğəmbərlərinə mənsub ediləcək.
*Loğman s urəsi, 6-7 c i ayələrdə* Allah سبحانه و تعا belə deyir:
***“İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan (başqalarını) Allah yolundan sapdırmaq və (Allahın ayələrini) lağa qoymaq üçün boş-boş hədisləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir.” ,***

***"Ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə üz çevirər. Sən belələrini ağrılı-acılı bir əzabla müjdələ."***.
Belə adamlar Allahın yolundan başqalarını səhvə salmaq üçün yalnız lətif sözlər/xəbərlər/Hədislər qəbul edirlər. Yuxarıdakı ayət həmçinin onların Quranın rəhbərliyini təqdim etdikdə hər dəfə kibirlənəcəklərini göstərir. Belə bir kateqoriya insanlar *əl-Ənam surəsi, 112-113-cü ayələrində* əlavə olaraq açıqlanır: ***"Beləliklə, Biz hər bir peyğəmbər üçün insanlar və cinlərdən olan şeytanlarından düşmənlər müəyyən etdik. (Bunlar) aldatmaq məqsədilə bir-birlərinə təmtəraqlı sözlər təlqin edirlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları şeylərlə birlikdə tərk et."*** ,
***"(Bu ona görədir) ki, axirətə inanmayanların ürəkləri (təmtəraqlı sözlərə) meyl etsin, bundan razı qalsınlar və gördükləri (pis )işləri bir daha görsünlər.".***
***"Biz səndən əvvəl elə bir elçi, elə bir peyğəmbər göndərməmişik ki, o, (ayələrimizi)(oxumaq) istədikdə şeytan onun oxuduğuna gizlicə (vəsvəsə) verməsin. Lakin Allah şeytanın gizlicə təlqin etdiyini yoxa çıxarar. Sonra da Allah Öz ayələrini möhkəmlədər. Allah Biləndir, Müdrikdir." ,***
***"(Belə edər ki,) şeytanın gizli təlqinini qəlbində xəstəlik olanlar və qəlbi sərt olan insanlar üçün bır sınaq (vasitəsinə) çevrilsin. Həqiqətən, zalımlar uzaq bir ayrılıq içindədirlər."*** *(əl-Həcc surəsi, 52-53-cü ayə).*
Quranın düşmənləri belə lətif sözlər/xəbərlər/Hədislər yaradır, yayır və insanlar həmişə onların yalanlarına meylli olacaqlar, ayətlərdə dediyi kimi. Belə şeytani ağıllar həmişə yalan uyduracaq və bu iftiraları Allah və Peyğəmbərlərinə mənsub edəcəklər:
***"O sizə pis və iyrənc işlər görməyi və Allaha qarşı bilmədiyiniz şeyləri söyləməyi əmr edir."*** *(əl-Bəqərə surəsi, 169-cu ayə).*
Allah və Onun Elçisinə ﷺ yalan olaraq təqdim edilən bu şeytan hədislərinə əməl edənlər, həmişə doğru yolda və həqiqi rəhbərlikdə olduqlarını düşünürlər, amma onlar Quranın mesajına qarşı kor qalacaqlar:
***"Kim Mərhəmətli (Allahın) zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar." , "Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər."***
*(əz-Zuxruf surəsi, 36-37-ci ayə)* Biz bu şeytan vəsvəsələrinə qarşı diqqətli olmalı və Quranın həqiqi ilahi təlimatlarına bələd olmalıyıq. Beləliklə, yuxarıda verilən sübutlardan aydın olur ki, Quranın oxşarı və ya bərabəri yoxdur. Quran özü - Elçinin sözü və ona Allah tərəfindən verilən "hədis"dir. Bundan başqa, Allah Quranında insanlara soruşur ki, Onun Kitabından sonra hansı "Hadisi" qəbul edəcəklər, həmçinin yalan sözlər ifadə edəcək və onları ilahi həqiqətlər kimi təqdim edəcək. Bu səbəbdən biz Allahın Kitabına sıxıca bağlanmalı və düşmənin bu aldatıcı hərəkətləri haqqında bilikli olmalıyıq.

**YANLIŞ DÜŞÜNCƏ № 6**

Quran Rəhbərlik üçün lazım olan hər şeyi ehtiva etmir. O tam deyil və Rəhbərlik tələb edən bütün suallara cavab vermir, hədislər Quranı tamamlayır.

**İZAH** Yaxşı, bəs Allah سبحانه و تعا öz Kitabını tam və rəhbərlik üçün lazım olan hər şeyi ehtiva etməyən bir Kitab kimi hesab edirmi? Aşağıdakı ayələr buna cavab verir.

***QURANDA İLAHİ RƏHBƏRLİK ÜÇÜN LAZIM OLAN HƏR ŞEY VAR***

***"...Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik."*** *(ən-Nəhl surəsi, 89-cu ayə)* ***"Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir."*** *(Yusuf surəsi, 111-ci ayə)*

***QURAN TAM HƏYAT KODEKSİNİ EHTİVA EDİR***

***"Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir."***
*(əl-Ənam s urəsi, 115-ci ayə)*

***"… Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq.. …"*** *(əl-Ənam surəsi, 38-ci ayə)* ***"Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də (mürəkkəb olub) ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir."*** *(Loğman surəsi, 27-ci ayə)*

***QURANDA QÜSUR YOXDUR VƏ TƏFƏRRÜATLIDIR***

***"(De:) "Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?" Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma."*** *(əl-Ənam surəsi, 114-cü ayə)*

***"Biz onlara biliyimizlə izah etdiyimiz, iman gətirən camaat üçün hidayət və mərhəmət olan bir Kitab göndərdik."*** *(əl-Əraf surəsi, 52-ci ayə)*

***"ayələri Quran kimi ərəbcə müfəssəl izah edilmiş, (anlaya) bilən camaat üçün (nəzərdə tutulmuş) bir Kitabdır."*** *(Fussilət surəsi, 3-cü ayə)*

***"Rəbbinin doğru yolu budur. Artıq Biz ayələri düşünən bir xalqa izah etdik."***
*(əl-Ənam surəsi, 126-cı ayə)*

***"Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən (nazil edilmiş), içində də heç bir şəkk-şübhə olmayan kitabları müfəssəl izah edəndir."***
*(Yunus surəsi, 37-ci ayə)*

***QURAN - AYDIN VƏ BAŞA DÜŞÜLƏN KİTABDIR, ONUN MƏNASINDA TƏHRİFAT YOXDUR.***

***"Əlif. Ləm. Ra. (Bu,) Müdrik, (hər şeydən) Xəbərdar (olan Allah) tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır."***
*(Hud surəsi, 1-ci ayə)*
***"Aydın Kitaba and olsun! " , "Biz Quranı ərəbcə nazil etdik ki, onu anlayasınız."***
*(əz-Zuxruf surəsi, 2-3 cü ayə)*
***"And olsun (bu) aydın Kitaba!"*** *(əd-Duxan surəsi, 2-ci ayə)*
**"...Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik."**
*(Ali İmran surəsi, 118-ci ayə)*
***"Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı?"*** *(əl-Qamər surəsi, 17-22-32-40 cı ayələr) (Qeyd: Bu ayələrə diqqət edin. Bu ayə Qamər surəsində 17,22,32,40 cı ayələrində bir hərf dəyişikliyi olmadan 4 dəfə təkrar edilir. Məsələnin nə qədər ciddi olmasını nəzərə alın və Uca Allahın bizim diqqətimizi buna çəkməkdə olan hikmətinə diqqət edin)*

***QURAN İNANANLAR ÜÇÜN KİFAYƏTDİR***

***"Onlara oxunan Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət vardır."***
*(əl-Ənkəbut s urəsi, 51-ci ayə)*
Yuxarıda göstərilən ayələr Allahın Kitabının tam, özbaşına kifayətli olduğunu, İlahi Rəhbərliyin heç bir aspektinin buraxılmadığını, mövzularının açıq-aydın olduğunu əmin şəkildə sübut edir.

***QURANDA GÖSTƏRİLMƏYƏN SUALLAR "ŞURA" İLƏ (QARŞILIQLI MƏSLƏHƏTLƏŞMƏ İLƏ) HƏLL OLUNACAQ***

Bəzi məsələlərə görə Qurani-Kərim hətta qanunvericilik aktları və detalları da ehtiva edir, məsələn, sosial məsələlərlə bağlı suallar kimi, evlilik, boşanma və s. Lakin bəzi məsələlərə görə Qurani-Kərim yalnız dəyişməz prinsipləri verir. Bu prinsiplər zaman və məkan asılı olmayaraq dəyişmir, lakin qanunvericilik aktları onların nəzərə alınması ilə hazırlana bilər və onlar cari şərait üçün nəzərdə tutulmuş olacaq və zamanla və sosial şəraitə uyğun olaraq dəyişə bilər. Bu qanunvericilik aktları "Şura" tərəfindən, yəni inananların təşkilatının qarşılıqlı məsləhətləşmələri ilə müəyyən ediləcək. Allahın Elçisi də insanlarla, İlahi Qanunların idarə edilməsi və bu cür qanunvericilik aktlarının icrası ilə bağlı məsələlər üzrə məsləhətləşirdi, bu barədə Qurani-Kərimdə deyilir:
***"...və görəcəyin işlər barədə onlarla məsləhətləş."*** *(Ali İmran surəsi, 159-cu ayə)*
Beləliklə, deyildiyi kimi Elçi, Vəhydə göstəriş olmayan məsələlərdə insanlarla məsləhətləşirdi. Allahın Quranda olan İlahi rəhbərliyi daimi və bütün zamanlar üçündür, amma bəzi idarəetmə qanunlarının tərtib edilməsinə ehtiyac yarana bilər, bu qanunlar İlahi dəyişməz dəyərlərin işığı altında tərtib edilməlidir.

Bu qanunverici aktlar dəyişməz deyil, müəyyən bir vaxt və ya dövrün geniş yayılmış şəraitinə uyğun olaraq nəzərdə tutulub, şərait tələb etdikdə onlarda dəyişikliklər edilə bilər.
Beləliklə, Quranda müəyyən olunur ki, insanlar həmçinin, işlərini ilahi prinsiplərin işığı altında qarşılıqlı məsləhətləşmə yolu ilə həll edə bilərlər.
***"O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edir, namaz qılır, işləri barədə öz aralarında məsləhətləşir, onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər."*** *(əş-Şura surəsi, 38-ci ayə)*
Beləliklə, Quranda göstərilməyən, amma mövcud şəraitlə bağlı olan məsələləri "Şura", yəni qarşılıqlı məsləhətləşmə həll edir. Ancaq, belə qanunverici aktların insanlar tərəfindən camaat şəklində qəbul edilməsinin vacibliyini xatırlatmaq lazımdır, yoxsa fərdi insan tərəfindən deyil. Şura sistemi bütün ümmətin məsuliyyətidir, o, Quranın dəyişməz dəyərlərinin işığı altında ilahi dəyərlərin həyata keçirilməsi üçün lazım olan qanunverici aktları təyin edir, bunlar hakim olan vaxt və şəraitə uyğun olaraq dəyişdirilə bilir. Bu qanunverici aktlar daimi deyil və bəzi məsələlərdə ehtiyac yarandıqda dəyişikliklər edilə bilər, yalnız Allahın Kitabındakı hökmlər, qaydalar dəyişilməzdir və vaxta, zamana tabe deyildir.
***"Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir"***
*(əl-Ənam surəsi, 115-ci ayə)*

**YANLIŞ DÜŞÜNCƏ № 7**

Quranda deyilir: “Elçinin sizə verdiyi şeyi alın və onun qadağan etdiyi şeydən uzaq durun”. Beləliklə, biz ənənə və hədislərin bizə verdiyi hər şeyi qəbul etməli və onların qadağan etdiyi şeydən uzaq durmalıyıq. Quranda deyilir ki, insanlar, Elçini öz mübahisələrində hakim qəbul etmədikcə və o, qərar verdiyi şeyə bütün ürəkləri ilə tabe olmadıqca iman etməzlər. Bu ayət, Elçiyə mənsub edilən ənənə və hədislərin vacibliyini vurğulayır.

**İZAH**

Birincisi, bu sitat, həqiqətən, *əl-Həşr surəsinin 7-ci ayəsinin* bir hissəsidir. Hədislərin müdafiəçiləri tərəfindən tez-tez gətirilən, kontekstdən kənarlaşdırılmışdır. Gəlin ayənin tamına nəzər salaq:

***“Allahın Öz Peyğəmbərinə kəndlərin əhalisindən verdiyi qənimətlər Allaha, Peyğəmbərə, qohum-əqrəbaya, yetimlərə, yoxsullara və müsafirlərə məxsus edilmişdir ki, o, aranızdakı zənginlərin dövləti olub qalmasın. Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.”*** *(əl-Həşr surəsinin 7-ci ayə).*

Və sonrakı ayə davam edir: ***“(Qənimət həmçinin) yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır.”*** *(əl-Həşr surəsi, 8-ci ayə)*

Yuxarıda göstərilən iki ayətdən dərhal aydın olur ki, sitat: *“Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin”*, Elçiyə mənsub edilən hədislərə deyil, ehtiyac duyanlar arasında paylaşdığı gənimətlərin bir hissəsinə aiddir.

İkincisi, bir müddət üçün, kontekstdən kənarlaşdırılmış bu sitatın, Elçinin dediyi kimi hədislərə aiddir deyə, argument kimi qəbul edək, beləliklə Quranda Elçinin nə verdiyi aydın olur. O, yalnız Quranı ilahi təlim kimi verdi:

***“Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver!”***

*(Qaf surəsi, 45-ci ayə).*

**" (De:) “Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?...”** *(əl-Ənam surəsi, 114-cü ayə).*

***“...Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim.*** *... ” (əl-Ənam surəsi, 19-cu ayə).*

***“Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun və (Allahdan) qorxun ki, bəlkə sizə rəhm oluna.”*** *(əl-Ənam surəsi, 155-ci ayə).*

Elçi insanlara yalnız Quranı ilahi təlim kimi verir, həmçinin Quranda olan vəhydən başqa bir Kitabı dini mənbə kimi qəbul etməyi qadağan edir:
***"De: "Əgər doğru deyirsinizsə, Allah tərəfindən elə bir Kitab gətirin ki, bu ikisindən daha doğru yol göstərən bir rəhbər olsun və mən də ona tabe olum!""***
*(əl-Qasas surəsi, 49-cu ayə).*
***"(Bu,) (insanları) qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın." ,***
***"Rəbbinizdən sizə nazil edilənə tabe olun. Onu qoyub başqa dostlara uymayın. Siz necə də az öyüd-nəsihət dinləyirsiniz."*** *(əl-Əraf surəsi, 2-3-cü ayə).*
Yuxarıda göstərilən ayədən nə aydın olur?
*əl-Həşr surəsinin 7-ci ayəsindəki* fraza kontekstdən kənarlaşdırılmışdır və o, Elçinin paylaşdığı qənimətlərin bir hissəsinə aiddir, yoxsa ona mənsub edilən gündəlik həyatın sözlərinə və əməllərinə yox.
İndi *ən-Nisa surəsi, 65-ci ayəyə* baxaq: ***"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar."***
Bu ayətdə deyilir ki, insanlar Elçini öz mübahisələrində hakim etməli və onun qərarlarını tam tabe qəbul etməlidirlər. Amma hədislərin müdafiəçiləri sadə təbiətli bir suala cavab verə bilmirlər: Elçi insanlar arasındakı mübahisələrdə necə qərar verirdi? Cavabı Quranda tapırıq: ***"Onların aralarında Allahın (sənə) nazil etdiyi (Kitabla) hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi (hökmlərin) bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir."***
*(əl-Maidə surəsi, 49-cu ayə).*
Elçi insanlar arasında hakimlik edirdi, amma onun hökmü və qərarları onun özünün deyil, Allahın Kitabına əsasən verilirdi. Yalnız Allahın Quranda nazil etdiyi şeyə görə Elçi hökm verirdi.
*ən-Nəhl surəsi, 64-cü ayədə* bu aspektin daha açıq izahı verilir:
***"Biz Kitabı sənə yalnız ona görə nazil etdik ki, onlara ixtilafda olduqları şeyləri bəyan edəsən və (bu, )mömin camaat üçün doğru yol göstərən rəhbər və mərhəmət olsun."***
Beləliklə, bütün bunlardan bu qənaətə gəlmək olar ki, Elçi insanlar arasında yalnız Qurana görə hakimlik edirdi və ixtilaflar və mübahisələr yalnız Allahın Kitabına görə həll olunurdu.

**YANLIŞ DÜÇÜNCƏ № 8**

Vəhy iki növ olur. Bunlardan biri - *"vəhy-mətlü"* - oxunan vəhydir, Quranda mövcuddur. Digəri isə - *"vəhy qeyr-mətlü"* - ayət kimi oxunmayan və Quranda olmayan vəhydir, o, hədislərin toplamlarında mövcuddur.

**İZAH**

Əvvəlki ayələrdən göründüyü kimi, Allah yalnız Quranı Məhəmməd Peyğəmbər ﷺ-ə verdiyi Vəhyi kimi təsdiq edir. Yalnız Quran vəhydir və "Mətlü", yəni oxunan vəhydir. Aşağıdakı ayətlər iki fərqli vəhy növünün, oxunan və oxunmayan vəhyin mövcudluğu haqqındakı iddianı rədd edir və vəhyin yalnız oxunan, Quranda ayət kimi bəyan edilən vəhy ola biləcəyini təsdiq edir.

*ər-Rad surəsi, 30-cu ayəsində* deyilir ki, Elçinin göndərilməsinin məqsədi odur ki, o, ona nazil olunan HƏR ŞEYİ OXUYA bilər, beləliklə vəhyin yalnız Qurani-Kərimin oxunulan ayələrinə aid olduğunu göstərər:

***"Beləliklə, Biz səni özündən əvvəl neçə-neçə ümmətlər gəlib getmiş bir ümmətə göndərdik ki, onlar ər-Rəhmanı inkar etdikləri halda, sənə vəhy etdiyimizi onlara oxuyasan. De: "O, mənim Rəbbimdir. Ondan başqa ilah yoxdur. Mən yalnız Ona təvəkkül edir və Ona üz tutub tövbə edirəm"."***

Bu ayətdən aydın olur ki, vəhy yalnız "vəhy-mətlü", yəni oxunan vəhydir: ***"…sənə vəhy etdiyimizi onlara oxuyasan …"***

Elçiyə yalnız bu "vəhyi" oxumaq əmr olunur: ***"Rəbbinin kitabından sənə vəhy olunanı oxu!..."*** *(əl-Kəhf surəsi, 27-ci ayə).*

Özü də, Elçi deyir ki, ona verilən vəhy yalnız Allahın Kitabıdır:

***"…Bu Quran mənə, sizi və (Quranın) çatdığı hər kəsi onunla xəbərdar etməyim üçün vəhy olundu. …"*** *(əl-Ənam surəsi, 19-cu ayə)*

Və bu "vəhy" - Allahın Kitabında olan vəhy idi və bu vəhy ilə o, insanlığı xəbərdar edən idi:

***"De ki: "Mən sizi yalnız vəhy ilə xəbərdar edirəm. Karlar isə xəbərdar edildikləri zaman bu çağırışı eşitməzlər"."*** *(əl-Ənbiya surəsi, 45-ci ayə).*

Beləliklə, Quranda bizə aydın deyilir ki, "vəhy" və ya ilahi vəhy yalnız Quranda oxunan ayətlərə aiddir, Qurandan başqa heç bir "Vəhyin" mövcudluğunu təsdiq etmir və həmçinin vəhyin "oxunan" və "oxunmayan" kimi keyfiyyətlərə bölünməsi də yoxdur.

**YANLIŞ DÜŞÜNCƏ № 9**

Biz Quranı "Əsbəb-əl-nüzul" (nazil olma səbəbi), yəni hər hansı bir ayənin niyə nazil olduğu haqqında hekayələri bilmədən başa düşə bilmərik.

**İZAH**

Quran vaxt və məkana bağlı olan bir kitab deyil. O, bütün zaman və dövrlərdə tətbiq oluna bilən dəyişməz prinsiplər verir. Quranın təfsiri üçün tarixi hekayələrə, müəyyən bir tarix dövründə hakim olan hekayələrə ehtiyacı olduğunu deyərək, Quranı yalnız bir konkret dövrə məhdudlaşdırmaq və Onu, bunu deyənlərin öz fikirlərinə və maraqlarına bağlamaq deməkdir. Halbuki, Allah belə bir fikri rədd edir, deyir ki, Onun Kitabı ət-Təkvir surəsi, 27-ci ayəsində deyildiyi kimi: ***"Dünyalar üçün Xatırlatmadır"*** və əl-Bəqərə surəsi, 185-ci ayədə deyildiyi kimi: ***"Bütün insanlar üçün Rəhbərdir"***, beləliklə, cəmiyyətin və bütün insanlığın formalaşdırılması və islah olunması üçün ilahi prinsiplər həmişə və hər yerdə yalnız Quranda olacaq. İnsanlıq mövcud olduğu müddətcə, Quran onu ilahi dəyərlərlə təmin edəcək. Bu dəyərlər daimi olaraq qalacaq və vaxta görə dəyişməyəcəkdir. Quranın dəyişməz dəyərləri kimi, keçmişdə tətbiq oluna bilənlərlə, eynilə hazırda və gələcəkdə də tətbiq oluna bilər. Quranda deyilən hər şey, əvvəlki tayfalar və elçilər haqqında xatırlatmalar belə, tarixi faktologiya deyil, bəzi ilahi prinsiplər haqqında xatırlatmadır və biz bütün Quranı yaşadığımız vaxt üçün rəhbər və işıq kimi nəzərdən keçirməli və onlarda bu günün problemləri üçün həll yolları axtarmalıyıq. Bu aspekt haqqında *Yusuf surəsi, 111-ci ayəsində* deyilir: ***"Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir."*** *Hud surəsi, 120-ci ayədə* deyilir: ***"Elçilərin xəbərlərindən hər birini sənə söyləyirik ki, bununla sənin ürəyini möhkəmləndirək. Bu (ayələrdə) sənə həqiqət, möminlərə də öyüd-nəsihət və xatırlatma vəhy edilmişdir."*** Beləliklə, bütün elçilər və əvvəlki cəmiyyətlər haqqında Quranda verilən hekayələr qədim hekayələr kimi deyil, amma ilahi rəhbərlik və əxlaqi dərslər kimi verilir. Allah Öz Kitabını bütün zamanlar üçün rəhbər kimi müəyyən etməsinə baxmayaraq, həmçinin Quranı yalnız keçmişə məhdud, tarix və bu gün başa düşülməyən bir şey kimi hesab edəcək insanlar haqqında da xəbər verir:

***"Şübhə yoxdur ki, Allah onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, təkəbbürlü olanları sevmir." ,***

***"Onlardan: "Rəbbiniz (peyğəmbərinə) nə nazil etmişdir?"– deyə soruşduqda, onlar: "Bu, keçmişdəkilərin nağıllarıdır!"– deyərlər."*** *(ən-Nəhl surəsi, 23-24-cü ayələr)*

***" İtaət etmə hər tez-tez and içənə, alçağa,"***

***"qeybət edənə, dedi-qodu yayana,"***

***"xeyrə mane olana, həddi aşana, günahkara,"***

***"daş ürəkliyə, bunlardan sonra da (başqasının adını mənimsəyən) fırıldaqçıya –"***

***“o (adam) var-dövlət və oğul-uşaq sahibi olsa belə.”***
***“Ayələrimiz ona oxunduğu zaman: “Bu, keçmişdəkilərin əsatirlərindəndir!”- deyər.”*** *(əl-Qaləm surəsi, 10-15-ci ayələr)*
Bütün bunlardan çıxarış olunur ki, Allahın Kitabını tarixə məhdudlaşdıranlar yalnız onu rədd edən kafirlərdir. Bundan başqa, Quranı *"Əsbəb-əl-nüzul"*nu (nazil olma səbəbini) bilmədən başa düşməyin mümkün olmadığını iddia edən insanlar cavab verməlidirlər:
1. “Onların hekayələrinin toplamları yəni hamısı, Allahın Kitabına asılı olan hekayələri, Quranda hər hansı bir ayətin niyə nazil olduğunu izah edə bilərlərmi?”
2. “Bunun üçün ən azı bir tam toplam kitabları varmı?”
3. "Bütün sünni, şiə və digər firqə və təriqətlərində bu hekayələrin saxlanılmış mənbəyi varmı? Və ya onların hamısının *“Əsbəb-əl-nüzul”* səbəbləri varmı?
Əlbəttə ki, Quranın özünün hər hansı bir ziddiyyətdən və ixtilaflardan azad olduğunu, mənasının aydın və dəqiq olduğunu, hər zaman üçün uyğun olduğunu və insanlar tərəfindən toplanmış və tərtib edilmiş hər hansı bir ədəbiyyata tabe olmadığını bildirir. Quranın təbliğ olunduğu dövrdə yaşamamış təriqət və firqələr tərəfindən qəbul edilən və ya rədd edilən, yalnızca zənn və təxəyyüllərə əsaslanan hekayələr yaratmış, öz-özlərinə zidd olan və elmi faktlarla ziddiyyət təşkil edən əksik bir ədəbiyyata ehtiyacı yoxdur.
Quran, belə rəvayətlərə və xəbərlərə ehtiyac duymur, çünki bunlar yalnız şübhələrə və fərziyyələrə əsaslanır.
***“Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar.”***
*(əl-Ənam surəsi, 116-cı ayə)*
Beləliklə, biz yaşadığımız vaxtın problemləri üçün həll yollarını Qurandan axtarmalı və öz cəmiyyətlərimizi Allahın Kitabındakı dəyişməz dəyərlər əsasında qurmağa çalışmalıyıq.

**YANLIŞ DÜÇÜNCƏ № 10**
Quranın bəzi ayətlərində deyilir ki, Elçi insanlara “əl-Kitab” və "əl-Hikmə"ni, yəni Kitab və Hikməti öyrədir. Kitab - Quran, Hikmət isə Quranın xaricində Elçiyə ﷺ verilən və hədislərin toplamı olan gizli və paralel vəhydir

**İZAH**
Quran bir konsept verdiyi zaman, onu havada asılı saxlamır. Quran öz konseptinə də tərif verir. Quranın bəzi ayətlərində deyilir ki, Allahın Elçisi insanlara “əl-Kitab” və "əl-Hikmə"ni öyrədir. Və sonra Quran özü "əl-Kitab"ın nə olduğunu tərifləyir. Bu Kitab, Yazılı və ya dəyişməz qanunlardır, “Hikmət” isə hikmətdir.
***“Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları (günahlardan) təmizləsin! Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən!”***
*(əl-Bəqərə surəsi, 129-cu ayə)*
***“Allah möminlərə, öz aralarından onlara (Allahın) ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara Kitabı və Hikməti öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər.”***
*(Ali İmran surəsi, 164-cü ayə)*
Yuxarıda göstərilən və bənzər ayətlərdə deyilir ki, Elçi Kitab və Hikməti öyrədir. Kitab, yəni “əl-Kitab”, Qurana aiddir. Bu, başqa ayətlərdə də izah olunur, məsələn: /
***“Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır.”*** *(əl-Bəqərə surəsi, 2-ci ayə)*
***“Rəbbinin Kitabından sənə vəhy olunanları oxu....”.*** *(əl-Kəhf surəsi, 27-ci ayə)* Lakin standart təfsirçilər iddia edirlər ki, yuxarıda göstərilən ayətlərdəki “Hikmət” Qurandan başqa bir şeyə aiddir və sanki bu, Qurana paralel olaraq Elçiyə verilən başqa bir vəhy növüdür. Onların fikrincə, bu, Quran surələrində olmayan, amma hədislərin toplamlarında tapıla bilən gizli bir vəhydir, *(Qeyd: bu “Hikmət” də təriqət və firqələrə görə fərqlənə bilir, yəni bir firqə və təriqətin “Hikməti” o biri təriqət və firqənin din əsaslarına zidd ola bilir).* Lakin hədislərin toplamlarını “Hikmət” adlandırmaq şübhəlidir, çünki Quran özü "Hikmət"i tamamilə başqa bir şey kimi tərifləyir. "Hikmət"i Qurandan xaricdə paralel bir vəhy kimi iddia etmək, Qurana ziddir, məsələn, ilahi dəyərləri izah etdikdən sonra deyir:
***“Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətdəndir. Allahla yanaşı başqa tanrıya ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan.”***
*(əl-İsra surəsi, 39-cu ayə)*

Yuxarıdakı ayədə "Hikmət" Quranda olan əmr və qadağalara aiddir, yəni "Hikmət" Allahın Kitabının yalnız bir atributudur.

***"Onlara (küfrdən) çəkindirən neçə-neçə xəbərlər gəlmişdir." ,***
***"Bu böyük bir hikmətdir. Lakin (arxa çevirənlərə) təhdidlər nə fayda verə bilər?!".*** *(əl-Qamər surəsi, 4-5-ci ayə)*

Və nəhayət, xüsusən də "Hikmət"i Qurandan xaricdə gizli və oxunmayan bir vəhy kimi düşünənlər üçün, növbəti ayətdə izah olunur ki, "Hikmət" Allahın Kitabındakı oxunan ayətlərdir, yoxsa onun xaricində deyil:

***"Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, (hər şeydən) Xəbərdardır."*** *(əl-Əhzab surəsi, 34-cü ayə)*

Yuxarıdakı ayətdə deyilir ki, Peyğəmbərin xanımlarının evlərində Allahın ayələri ilə yanaşı "Hikmət" də oxunurdu, bu da "Hikmət"i "gizli və oxunmayan vəhy"
*(Qeyd: "vəhy qeyr-mətlü" bax: "Yanlış düşüncə 9")* kimi təqdim etmək iddiasını ləğv edir. Quran aydın göstərir ki, "Hikmət" Quranın xaricində başqa bir vəhy deyil, amma Quranın özünün yalnız bir atributudur. Bütün Allahın Elçiləri "əl-Kitab"ı, yəni insan cəmiyyətini idarə etmək üçün qanun və təlimatları alırdılar, amma bu qanunlarla yanaşı Allah onlara Hikməti, yəni bu qanunların əsasını da verirdi. Allahın qanunları insanlara zorla tətbiq edilmək üçün nəzərdə tutulmayıb, amma insanların ağıl və azad iradə istifadə edərək qəbul etmələri lazım olan şeydir, beləliklə, Quran hər hansı bir qanun təqdim etdikdə, o, həmçinin hikməti, yəni bu qanunun səbəbini də verir və bizə ilahi qanunu həyatımızda tətbiq etməklə əldə etdiyimiz xeyri düşünməyə çağırır. Məsələn, qadınlara mütəvazı geyinməyi təlimat verdikdən sonra, Quran bu qanunun arxasında duran səbəbi - "Hikmət"i göstərir, yəni:

***"…Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir …".*** *(əl-Əhzab surəsi, 59-cu ayə)* Eyni şəkildə alkoqol və qumar qadağasının arxasında duran əsas "Hikmət" də verilir:

***"Səndən sərxoşedici (içki) və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür "*** *(əl-Bəqərə surəsi, 219-cu ayə)*

Yuxarıdakı ayətdə alkoqol, narkotik, qumar və s. ərəb dilində "ithm" sözü ilə adlandırılır, bu da "zəifləmə" deməkdir, yəni hər hansı bir şeydə zəiflik və atrofiya yaradan şey. Heç kim üçün sirr deyil ki, bu gün qumar, narkotik və alkoqol insan cəmiyyətinə necə təsir edir. Beləliklə, Allah bizə Onun qanunlarını yerinə yetirməklə faydanı düşünməyə və bununla yanaşı bu qanunların arxasında duran Hikməti verir.

Buna görə də Quranın təkrarlanan atributlarından biri də "Hikmət Kitabı"dır:
***“And olsun hikmətli Qurana!”***
***“Həqiqətən, sən göndərilmiş elçilərdənsən,”***
***“doğru yoldasan.”*** *(Ya sin surəsi, 2-4-cü ayələr)*
***“Bu, hikmətli Kitabın ayələridir.”***
***“Xeyirxah əməl sahiblərinə doğru yolu göstəricisi və rəhmətdir.”***
*(Loğman surəsi, 2-3-cü ayə)*
Beləliklə, bütün bunlardan qənaətə gəlinir ki, “Hikmət” Quranın xaricində paralel, amma oxunmayan bir vəhy deyil, amma Allahın Kitabının yalnız bir atributudur və ilahi qanunların səbəb və əsasını verən ayələrə aiddir. Və hələ də "Hikmət"i öz sektalarının, təriqət və firqələrinin hədis toplamlarına aid olduğunu düşünənlərə belə bir sual vermək istəyirəm:
Quran Allahın "Hikmət"ini Davuda (əl-Bəqərə surəsi, 251-ci ayə),
İsaya *(Ali İmran surəsi, 48-ci ayə),*
İbrahimin nəslinə *(ən-Nisa surəsi, 54-cü ayə),*
Loqmana *(Loğman surəsi, 12-ci ayə)* və s. kimi Elçilərə *(Onların hamısına Allahın salamı olsun)* və insanlara verdiyini deyir. İndi Siz düşünürsüz ki, bu verilən Hikmət, Allahın qanunlarına paralel, amma ziddiyyətli, şübhəli rivayət və hədislərdən ibarətdir?

**YANLIŞ DÜŞÜNCƏ № 11**

Din məsələlərində ağıl və ya intellekt üçün yer yoxdur. Biz ilahi mesajı anlamağa və ya böyük əcdadlarımızın təfsirlərini ağıl və ya tənqidi düşüncə əsasında yoxlamağa çalışmamalıyıq. Biz yalnız əcdadlarımızın bizə ötürdüklərinə təvazökarlıqla tabe olmalıyıq. "Əql" (ağıl) istifadəsi xüsusilə Quranı anlamağa aid məsələlərdə qadağandır. Böyük əcdadlarımız "din elmi" kimi nə deyirlərsə, biz onları tanımalı və şərtsiz şəkildə onlara tabe olmalıyıq, yoxlamağa və ya araşdırmağa çalışmamalıyıq.

**İZAH**

Allahın mesajını və ya mənəviyyatı anlamaq üçün ağlın lazımsız olduğu fikri səhvdir. Quranda bir çox ayələrdə insanın ağıl və intellektinə müraciət olunur.
Bu ayələrdə deyilir ki, Allahın mənəvi mesajını anlamaq üçün öz intellektual bacarıqlarını və ağlını istifadə etməyən insanlar insan səviyyəsində tanınmağa layiq deyillər:
***"Şübhəsiz ki, Allah dərgahında canlıların ən pisi (haqqı) anlamayan karlar və lallardır."***
(əl-Ənfal surəsi, 22-ci ayə)
İnsan ibadətində ağlını istifadə etmədikdə, insanın zəifləməsi baş verir. Qurana görə, belə bir insan yalnız bu həyatda zəif və alçalan həyat yaşamır, həm də axirət həyatı üçün qabiliyyətsiz olurlar:
***"Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq....".***
*(əl-Əraf surəsi, 179-cu ayə)*
Bu qabiliyyətsizliyin səbəbi Quranda belə bildirilir:
***"…Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır."*** *(əl-Əraf surəsi, 179-cu ayə)*
Bu məqam *əl-Furqan surəsi, 44-cü ayədə* yenidən vurğulanır, burada Quranın mənəvi mesajına biganə qalanlardan bəhs olunur:
***"Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq (Əql edəcək)? Onlar heyvan kimidirlər, hətta, (haqq) yoldan onlardan daha çox uzaqlaşmışlar."***
Ağıl və intellektin istifadəsinin Allahın mənəvi mesajını anlamaq və başa düşmək üçün nə qədər vacib olduğunu daha çox vurğulamaq mümkün deyil. Cəhənnəm sakinləri etiraf edəcəklər ki, "əql"-ə malik olmaqlarına baxmayaraq, onu məqsədində istifadə etməmişlər və bu da onların acınacaqlı sona gəlməsinə səbəb olmuşdur: "Onlar deyəcəklər:
***"Əgər biz dinləsəydik və ya anlasaydıq alov (şölələri saçan) od sakinlərinin içində olmazdıq!"*** *(əl-Mulk surəsi, 10-cu ayə)*

*Ya sin surəsi, 62-63-cü ayələrdə* ağıl və intellektin bacarıqlarından istifadə etməməyin və sonda onun bədəlinin nə olduğundan bəhs olunur:

***“Artıq (şeytan) içərinizdən bir çoxlarını yoldan çıxartmışdır. Məgər dərk etmirdiniz?” , “Bu sizə vəd edilmiş Cəhənnəmdir.”***

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, Quran ağıla düşmən deyil və onu Allahın mesajını anlamaq və dərk etməkdə maneə kimi görmür.

Quran insanlardan ayələr üzərində düşünməyi və ağıl işığında onları analiz etməyi istəyir. Quran, ağıl istifadəsinə müraciət edən ifadələrlə doludur:

***“Məgər onlar Quran barəsində düşünmürlərmi?”*** *(ən-Nisa surəsi, 82-ci ayə)*

***“Məgər (kafirlər) bu Söz (Quran) haqqında düşünmürlərmi?...”***
*(əl-Muminun surəsi, 68-ci ayə)*

***“mübarək Kitabı,onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.”*** *(Sad surəsi, 29-cu ayə)*

***“…Məgər düşünmürsünüz?...”*** *(əl-Ənam surəsi, 50-ci ayə)*

***“…Biz ayələri düşünən adamlar üçün beləcə izah edirik.”***
*(Yunus surəsi, 24-cü ayə)*

***“Sizə sizləri xatırladan bir Kitab nazil etdik. Məgər başa düşmürsünüz?”***
*(əl-Ənbiya surəsi, 10-cu ayə)*

***“…Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.”***
*(Ali İmran surəsi, 118-ci ayə)*

Allahın ayələri üzərində düşünməyi yorucu sayan insanlar aşağıdakı ayələrdə təsvir olunur:

***“Onlar Allahın lənətlədiyi, qulaqlarını kar və gözlərini kor etdiyi kimsələrdir.” , “Məgər onlar Quran haqqında düşünmürlərmi? Yoxsa qəlbləri qıfıllıdır?”*** *(Muhəmməd surəsi, 23-24-cü ayə*)

Quran daim insanın ağıl və intellektinə müraciət edir. Onun təlimi, aydın və anlaşılan bir dildə ifadə olunur. Göstərilən ayələrdən aydın olur ki, Quran insan həyatında ağla ən vacib rol verir. Hətta Allahın Elçisinə ﷺ insanlardan kor itaət tələb etməmək, onları düşünməyə və təfəkkür etməyə çağırmaq əmr olunur. Növbəti və digər ayələr Quranın müstəqil düşüncəni təşviq edir və təsdiqləyir:

***"De: “Mənim sizə bircə nəsihətim var; Allah üçün iki-iki, bir-bir ayağa qalxın, sonra da bir düşünün. … "*** *(Səba surəsi, 46-cı ayə)*

Əgər insan bunu edərsə, doğru yolda olacaq. Doğru yol, yalnız insan ağlı və Allahın Kitabında yer alan ilahi vəhyin rəhbərliyi ilə tapılıb ona uyğun hərəkət edilə bilər. Bu iki rəhbərlik mənbəyi bir-birini tamamlayır. Onlar öz sahələrində qaldıqca aralarında ziddiyyət yaranmayacaq.

Belə ki, Quranda deyilir:

***"De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, (insanları) Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm"*** *(Yusuf surəsi, 108-ci ayə)*

Quran yalnız ağl və intellektin ən vacib rolunu göstərməklə bərabər, həm də bəzi insanların ilahi rəhbərliksiz öz ata-baba inanclarını kor-koranə təqlid etdiklərini də göstərir. Adətən, insanlar əcdadlarından miras qaldığı inanclara bağlı qalırlar. Onlar bu inancları yoxlamır, əqli və tənqidi şəkildə analiz etmirlər. Bir çox insanlar əcdadlarının ata-baba inanclarını həqiqət kimi qəbul edirlər. Onların yeganə meyarı budur: "Bizim əcdadlarımız və böyüklərimiz necə səhv edə bilərlər?"

"Din avtoritetləri" də onlara dini inanclar haqqında sual verməyi qadağan edir və heç bir sübut olmadan öz doktrinalarına kor-koranə tabe olmağı tələb edirlər. Əcdadların məzhəbi həmişə Allahın Həqiqətini qəbul etməyə mane olmuşdur, çünki əksər hallarda əcdadların inancları Allahın Mesajı ilə ziddiyyət təşkil edir. Hər zaman, Allahın həqiqəti və reallığı onlar üçün aydın olduğunda, insanlar əvvəlcə əcdadlarının başqa bir şeyə inandıqlarını və əcdadlarının inanclarında qalmağı üstün tutduqlarını iddia edirlər. Onların Quranı izləməyə çağırıldıqlarında gətirdikləri bəhanə eynidir və Qurana şəxsi rəhbərlik kimi müraciət etmək əvəzinə onlar doğulduqları məzhəb və ya məzhəbi kor-koranə izləmək yolunu seçirlər.

***"Onlara: "Allahın nazil etdiyinə tabe olun!"– deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!"– deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?"*** *(əl-Bəqərə surəsi, 170-ci ayə)*

Əcdadların məzhəbi həmişə Allahın həqiqətini qəbul etməyə mane olmuşdur və peyğəmbərlərə eyni arqumentlər gətirilmişdir. Nuh (onun üzərinə salam olsun) qövmünün kafir başçılarının cavabı:

***"…Biz bunu ulu babalarımızdan eşitməmişik.."*** *(əl-Muminun surəsi, 24-cü ayə)* Huda (onun üzərinə salam olsun) qövmünün cavabı:

***"…Yanımıza gəlmisən ki, atalarımızın ibadət etdiklərini buraxıb tək Allaha ibadət edək?"*** *(əl-Əraf surəsi, 70-ci ayə)*

Salihin (onun üzərinə salam olsun) qövmünün cavabı:

***"…Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən?..."*** *(Hud surəsi, 62-ci ayə)*

Şuaybin (onun üzərinə salam olsun) qövmünün cavabı:

***"…Ey Şueyb! Atalarımızın ibadət etdikləri (tanrılardan), yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir?..."***
*(Hud surəsi, 87-ci ayə)*

İbrahimin (onun üzərinə salam olsun) qövmünün müşriklərinə sualının cavabı:
***“Onlar dedilər: “Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük”.***
*(əş-Şuəra surəsi, 74-cü ayə)*
Yusufun (onun üzərinə salam olsun) xatırlatması:
***"Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir.** ..” (Yusuf surəsi, 40-cı ayə)*
Musaya və Haruna (onların üzərinə salam olsun) cavabı:
***" .. “Bu ancaq uydurulmuş bir sehrdir. Biz ulu babalarımızdan belə bir şey eşitməmişik**...” (əl-Qasas surəsi, 36-cı ayə)*
Məhəmmədə ﷺ-ə olan reaksiya:
***“…Bu ancaq sizi atalarınızın ibadət etdiklərindən döndərmək istəyən bir adamdır!. ”***
*(Səba surəsi, 43-cü ayə)*
Quran ağsaqqalların və əcdadların imanına kor-koranə riayət etməyi qətiyyətlə inkar edir. İnsanları həqiqəti müəyyənləşdirmək üçün düşünmə qabiliyyətlərindən və zəkalarından istifadə etməyə təşviq edir
Quran yalnız iddialarına dəlil gətirməklə kifayətlənmir:
***“Ey insanlar! Sizə Rəbbinizdən bir dəlil gəldi və Biz sizə parlaq bir nur (Quran) nazil etdik.”** (ən-Nisa surəsi, 174-cü ayə)*
***“De: “Rəbbinizdən sizə göz qabağında olan dəlillər gəlmişdir. Kim (onları) görsə, (xeyri) onun özünə, kim kor olsa (zərəri) onun öz əleyhinə olar. Mən sizin üstünüzdə gözətçi deyiləm”** (əl-Ənam surəsi, 104-cü ayə)*
həm də rəqiblərini dəlil gətirməyə çağırır:
***“De: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!”** (əl-Bəqərə surəsi, 111-ci ayə)*
***“…De: “Sübutunuzu göstərin! Budur mənimlə olanların zikri və məndən öncəkilərin zikri…”** (əl-Ənbiya surəsi, 24-cü ayə)*
***“De: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin”** (ən-Nəml surəsi, 64-cü ayə)*
***“Əgər doğru deyirsinizsə, kitabınızı gətirin!”** (əs-Saffat surəsi, 157-ci ayə)*
Əcdadların dediklərinə kor-koranə təqlid etmək insanın onların inanclarını yoxlamadan və sübutunu Allahın Kitabına uyğun olaraq tələb etmədən qəbul etməsi nəzərdə tutulur. Şeytanın əsas məqsədi insanları Qurandan uzaqlaşdırmaq olduğu üçün, ataların yolunu və inanclarını izləmək onun tərəfindən təşviq olunur:
***“Onlara: “Allahın nazil etdiyinə itaət edin!”– deyildikdə, onlar: “Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!”– deyərlər. Əgər şeytan onları (Cəhənnəm) odunun əzabına doğru sürükləyirsə necə olsun?”***
*(Loğman surəsi, 21-ci ayə)*

Bütün məsələlərdə Allahın Kitabından rəhbərlik almaqları əvəzinə, kafirlər öz əcdadlarının yolunu təqlid etməkdə israr edirlər:

***“Bəlkə onlara bundan əvvəl kitab vermişik və onlar da ona istinad edirlər?”***
***“Xeyr! (Müşriklər:) “Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!”– deyirlər.”***
***“Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən (bir peyğəmbər) göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: “Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!”– dedilər.”***
*(əz-Zuxruf surəsi, 21-22-23-cü ayə)*

Beləliklə, biz, şəriət məsələlərində, ağıl və Quranın meyarlarını istifadə edərək, əcdadlarımızdan miras qalan inanc və inancları təhlil etməli və yenidən nəzərdən keçirməliyik, Quranın təlimləri ilə təsdiqlənib-təsdiqlənmədiklərini yoxlamalıyıq. Əgər Quranla idarə olunmasaq korlar kimi əcdadlarımızı izləsək, sonumuz əvvəlcədən müəyyənləşdirilmişdir:

***“Sonra onlar mütləq Cəhənnəmə qaytarılacaqlar.” ,***
***“Həqiqətən, onlar ata-babalarını azmış gördülər,” ,***
***“özləri də tez-tələsik onların izini tutub getdilər.”***
*( əs-Saffat surəsi, 68-69-70-ci ayələr)*

Qiyamət günü Allah soruşacaq:

***"Od onların üzünü yandıracaq. Onlar orada qıc olmuş vəziyyətdə qalacaqlar.” , “Məgər Mənim ayələrim sizə oxunmurdumu, siz də onları yalan hesab etmirdinizmi?” ,***
***“Onlar deyəcəklər: “Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq.”***
*(əl-Muminun surəsi, 104-105-106-cı ayələr)*

O Gün insanlar etiraf edəcəklər:

***"Onlar deyəcəklər: “Əgər biz dinləsəydik və ya anlasaydıq alov (şölələri saçan) od sakinlərinin içində olmazdıq!”*** *(əl-Mulk surəsi, 10-cu ayə)*

Biz yalnız öz əməllərimizə görə məsuliyyət daşıyırıq və yalnız öz əməllərimizə görə cavab verəcəyik, əcdadlarımızın əməlləri və ya inancına görə deyil:

***“Onlar bir ümmət idi ki, gəlib getdi. Onların qazandıqları özlərinə, sizin qazandığınız isə sizə aiddir. Siz onların etdikləri barədə sorğu-sual olunmayacaqsınız.”*** *(əl-Bəqərə surəsi, 141-ci ayə)*

Buna görə də, bir daha qeyd edək, əcdadların dindarlığı haqqında mübahisələrə girmək mənasızdır, çünki Quran aydın şəkildə izah edir ki, biz yalnız öz əməllərimizə görə cavab verəcəyik, əcdadlarımızın əməlləri və ya inancına görə deyil.

Adətən, öz təriqət və firqələrinin çoxdan ölmüş liderlərinin ədalətli olduğunu iddia edən insanlar, onların şəxsiyyəti, ətrafdakıların qiymətləndirmələri və ya şifahi ənənələr haqqında məlumatları sübut kimi gətirirlər, onların rəqibləri isə əksini sübut etmək üçün başqa arqumentlər gətirirlər. Bütün bu kiçik sektant mübahisələri, çoxdan ölmüş əcdadlar ətrafında gedir və Qiyamət günü onlar haqqında sorğu-sual olunmayacağıq. Buna görə də, onlar haqqında mübahisə etmək mənasızdır. Əgər əcdadlarımız ilahi dəyərlərə uyğun hərəkət etmişlərsə, şübhəsiz mükafatlarını alacaqlar, amma bizim haqqında heç bir bilgimiz olmayan şeylər haqqında mübahisə etmək heç bir məqsədə xidmət etməyəcək. Quran bizə belə mənasız hərəkətlərdən çəkinməyi tövsiyə edir:
***"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı (sahibinin əməlləri) barəsində sorğu-sual olunacaqdır."***
*(əl-İsra surəsi, 36-cı ayə)*
Quran doğru biliklərin əhəmiyyətini vurğulayır və onu qəbul etməyi və ona uyğun hərəkət etməyi çağırır. Qalan hər şey, etibarlı bir rəhbərlik olmayan fərziyyələr kimi rədd edilir:
***"...Zənn isə əsla həqiqət ola bilməz. "*** *(ən-Nəcm surəsi, 28-ci ayə)*
Biz ağıllı varlıqlar kimi, doğru bilgiyə çatana qədər dayanmamalıyıq. Sadəcə fərziyyə ilə kifayətlənmək, öz ağlımızdan imtina etmək deməkdir. İnsan Quranı qərəzli fikirlərdən azad bir zehniyyətlə qarşılamalıdır.

Həqiqəti əldə etmək üçün intellektual bacarıqlardan istifadə etməliyik, emosional meyllərdən deyil. Quranın göstərişinə görə, İlahi rəhbərliyi anlamaq üçün əsas şərtlər bunlardır. Qurana bu cür yanaşmayanlar üçün Quran əlçatmaz və möhürlənmiş bir sirr olaraq qalır:
***"Ulduzların batdığı yerlərə and olsun!" ,***
***"Kaş bunun, doğrudan da, böyük bir and olduğunu biləydiniz.",***
***"Həqiqətən, bu, ehtirama layiq Qurandır," ,***
***"qorunub saxlanılan Yazıdadır,"Ona yalnız pak olanlar toxunur." ,***
***"O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir."*** *(əl-Vaqiə surəsi, 75-80-ci ayə)*
Yekunlaşdıraraq, Vəhy, yəni Allahın Kitabı ilə insan ağlı arasında ziddiyyət yoxdur və ola da bilməz, əksinə, onlar həyata Rəhbərlik kimi bir-birini tamamlayırlar. Quran bizə mənalarını anlamaq üçün intellektual bacarıqlarımızdan istifadə etməyi çağırır və əcdadlara kor-koranə təqlid etmək qəbul edilmir. Biz həqiqətə can atmalıyıq, əcdadlarımızın şübhəli ənənələrinə və fərziyyələrinə güvənməməliyik.

**YANLIŞ DÜŞÜNCƏ № 12**
Alimlər dinin qoruyucularıdır. Onları ilahi mesajın təfsirində yeganə səlahiyyətli şəxslər kimi hesab etməli və onların dediklərinə təvazökarlıqla qulaq asmalıyıq. Alimlər tərəfindən təsdiqlənmiş heç bir şeyi mübahisə etməməliyik, çünki onlar Peyğəmbərlərin varisləridir.

**İZAH**
Dünyadakı demək olar ki, hər bir din öz ruhanilərini dinin qoruyucuları hesab edir, Quran isə əksinə, ruhanilərin əslində:
***"Ey iman gətirənlər! Baş keşişlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və (onları) Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri üzücü bir əzabla müjdələ.”***
*(ət-Tovbə surəsi, 34-cü ayə)* mesajını verir.
Ruhanilər insanları Allahın Kitabında təsvir olunan yolundan azdırırlar, özbaşına qanunlar uydururlar və sonra bunları yalan olaraq Allahın adına yozurlar. Həmçinin, onlar öz izləyicilərinə verilən hər şeyi şübhəsiz qəbul etməyi öyrədirlər, beləliklə onların düşünmə və yoxlama qabiliyyətini əllərindən alırlar və nəticədə insanlar ruhanilərin təlimlərini ilahi həqiqət kimi qəbul edərək zəlalətə düşürlər.
Quran bu cür davranışları qətiyyətlə qınayır:
***“Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: “Bu, Allahın vəhyidir!”– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!”*** *(əl-Bəqərə surəsi, 79-cu ayə)*
*əş-Şura surəsi, 21-ci ayədə* isə özbaşına şəriət qanunları uyduran və sonra bunları Allah və Onun Elçisinə yalan olaraq yozanlardan bəhs edilir:
***“Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün şəriət qanunu edən bilən şərikləri vardır? Əgər həlledici Söz olmasaydı, aralarındakı iş bitmiş olardı. Həqiqətən, zalımları ağrılı-acılı bir əzab gözləyir.”***
Allahın bizə verdiyi ən böyük nemətlərdən biri düşünmə və məntiq qabiliyyətidir. Bu neməti düzgün və ağıllı istifadə etməliyik. Quran bizə heç bir şeyi haradan gəldiyindən asılı olmayaraq “müqəddəs” mənbədən gəlsə belə yoxlamadan qəbul etməməyi, əmr edir:
***“Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı (sahibinin əməlləri) barəsində sorğu-sual olunacaqdır.”***
*(əl-İsra surəsi, 36-cı ayə)*
Yuxarıdakı ayələr, məlumatları Allahın bizə verdiyi ağıl və intellektlə öncədən araşdırmadan qəbul etməməli olduğumuzu açıq şəkildə ifadə edir.

Təriqət və firqə liderlərinin fikirlərinə, onları İlahi Kitabla müqayisə etmədən kor-koranə tabe olmaq, acınacaqlı nəticələrə səbəb ola bilər:

***“(Axirət günü) hamı Allahın hüzuruna çıxarılacaq və zəiflər təkəbbürlük göstərənlərə deyəcəklər: “Biz sizə tabe idik. (İndi) siz, Allahın əzabını, qismən də olsa, bizdən sovuşdura bilərsinizmi?” Onlar deyəcəklər: “Əgər Allah bizi doğru yola yönəltsəydi, biz də sizə doğru yolu göstərərdik. (İndi) qəm çəksək də, səbr etsək də bizim üçün eynidir. (Çünki) bizim üçün qurtuluş yeri yoxdur”.”***

*(İbrahim surəsi, 21-ci ayə)*

Qiyamət günündə liderlər və onlara kor-koranə təqlid edənlər bir-birilərindən imtina edəcəklər:

***“O zaman, tabe olunmuş (başçılar) tabe olunanlardan uzaq-laşacaq, (hamısı) əzabı görəcək və aralarındakı əlaqələr kəsiləcəkdir.” , “Tabe olanlar deyəcəklər: “Əgər bizim üçün (dünyaya) dönüş olsaydı, (indi) onlar bizdən uzaqlaşdıqları kimi biz də onlardan uzaqlaşardıq!” Beləcə, peşman olsunlar deyə Allah onlara özlərinin əməllərini göstərəcək və onlar (heç vaxt Cəhənnəm) odundan çıxa bilməyəcəklər.”*** *(əl-Bəqərə surəsi, 166-167-ci ayələr)*

Dini məsələlərdə təriqət və firqə liderlərinə Quranla uyğunluğunu yoxlamadan tabe olmaq, Qiyamət günündə insanların deyəcəkləri şeylərə səbəb ola bilər:

***“Onlar deyəcəklər: “Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar.” , “Ey Rəbbimiz! Onları ikiqat əziyyətə sal və onları müdhiş bir lənətə məruz qoy!””*** *(əl-Əhzab surəsi, 67-68-ci ayələr)*

Qiyamət günündə yalnız Quranla sorğu-sual olunacağımız üçün, yalnız buna hazırlaşmalıyıq.

***“Doğrusu, bu (Quran) sənin üçün və sənin xalqın üçün bir şərəfdir. Siz sorğu-suala tutulacaqsınız.”*** *(əz-Zuxruf surəsi, 44-cü ayə)*

və çalışmalıyıq ki, Allah Rəsulunun ﷺ axirətdə Allaha şikayət etdiyi qullarından olmayaq:

***“Peyğəmbər: “Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!”– deyəcək.”***

*(əl-Furqan surəsi, 30-cu ayə)*

Buna görə, düşünmək və təfəkkür etmək qabiliyyətimiz Allahın bizə bəxş etdiyi ən böyük nemətdir. Buna görə də, heç kimə, alimlərə, liderlərə və ya insan qruplarına, Allahın bizə verdiyi bu neməti bizdən almağa icazə verilməməlidir, əks halda Quranın proqnozlaşdırdığı nəticələr baş verəcəkdir.

Dünyada minlərlə dini alim və onların milyonlarla davamçıları və şagirdləri vardır. Onların hamısı həqiqətənmi doğru olaraq "Allahın Dini"ni öyrədir? Əlbəttə ki, yox. Bəs onda necə bilməliyik ki, onlardan hansı doğru, hansı yalnışdır? Axı Allah bəzi insanlar haqqında bizə xəbərdarlıq etmişdir:

***“(Allah Öz bəndələrinin) bir qismini doğru yola yönəltdi, digərlərinə isə (haqq yoldan) azmaq layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları özlərinə dost tutdular və elə güman edirlər ki, doğru yoldadırlar.”*** *(əl-Əraf surəsi, 30-cu ayə)*

Müsəlman olmaq üçün Allahın Qurandakı qanunlarını bilmək lazımdır. Əgər biz onları bilmiriksə, necə doğru ilə yanlışı ayırd edə bilərik? Əgər biri ağlını və sağlam məntiqini Quranın mesajını aydınlaşdırmaq üçün istifadə etmirsə, onda başqalarının istəkləri və arzularından başqa kimin ardınca gedə bilər ki? Beləliklə, "Allahın Dini"ndə ruhani sinif yoxdur və insanla İlahi rəhbərlik arasında heç bir vasitəçi yoxdur. İlahi mesaj üzərində düşünmək və təfəkkür etmək öhdəliyi xüsusi bir sinifin eksklüziv hüququ deyil. Allah bizi hər şeyi düşünməyə və Onun Kitabında rəhbərlik axtarmağa çağırır.***“İnsanlara doğru yolu göstərən, bu yolun və (haqqı batildən) ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər (həmin ayı) oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda (oruc tutmalıdır.) Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, (istəyir ki,) siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz.”*** *(əl-Bəqərə surəsi, 185-ci ayə)*

***“Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.”***

*(ən-Nisa surəsi, 82-ci ayə)*

***“(Bu) mübarək Kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.”***

*(Sad surəsi, 29-cu ayə)*

***“Məgər onlar Quran haqqında düşünmürlərmi? Yoxsa qəlbləri qıfıllıdır?”*** *(Muhəmməd surəsi, 24-cü ayə)*

və son olaraq:

***“Odur ki, sən özünə vəhy olunan (ayələrə) sarıl! Əslində, sən düz yoldasan.”***

*əz-Zuxruf surəsi, 43-cü ayə*